QARABAĞ AZƏRBAYCANDIR!

N42 (1141) 22-28 oktyabr 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Prezident İlham Əliyevin xalqa müraciəti

***- Əziz həmvətənlər, müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq.***

Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir. Bizim hərbçilərimiz şəhid olurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq. Bizim hərbçilərimiz döyüş meydanında yaralanırlar. Allah bütün yaralı hərbçilərimizə şəfa versin! Eyni zamanda, mənfur düşmən bizim yaşayış məntəqələrimizi daim atəşə tutur, hər gün cəbhəboyu şəhərlərimiz, kəndlərimiz mənfur düşmənin atəşinə məruz qalır. Bu namərd atəşə ən çox məruz qalan Tərtər rayonudur, eyni zamanda, Ağdam, Goranboy, Ağcabədi, Bərdə, digər şəhər və rayonlarımız düşmən tərəfindən atəşə tutulur. Gəncə şəhərinə namərd zərbələr nəticəsində dinc əhali həlak olur - uşaqlar, qadınlar, qocalar. Düşmən üçün bunun fərqi yoxdur. Belə bir fərq onlar üçün mövcud deyil. Onlar döyüş meydanında məğlubiyyətə uğrayır, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir. Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir. Otuz il ərzində bizim torpaqlarımızda oturub bizə meydan oxumağa çalışırdı. Otuz il ərzində bizim torpaqlarımızı istismar edirdi, bizim təbii resurslarımızı istismar edirdi, oğurluq, talançılıq onların xislətidir. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmayıb. Bütün binalar sökülüb, talan edilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, talan edilib, təhqir edilib. Onlar hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər, Azərbaycan xalqının iradəsini qıra bilmədilər.

Öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın. Biz bunu Cocuq Mərcanlının timsalında gördük. İşğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıbdır. Əminəm ki, bu gün



işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar. Necə ki, vaxtilə bizim işğal edilmiş bütün torpaqlarımızda Azərbaycan xalqının mədəni irsi yaradılıbdır. Amma mənfur düşmən bu irsi məhv etmək istəyirdi, bizim məscidlərimizi dağıdırdı. Biz Çocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edəndə və onun açılışında demişdim ki, məscidlərin binalarını onlar dağıda bilərlər, amma bu məscidləri biz öz qəlbimizdə yaşadırıq və gün gələcək bizim dağıdılmış bütün məscidlərimiz bərpa ediləcəkdir, bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır.

Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik.

**30 ilə yaxın aparılan danışıqlar heç bir nəticə vermədi. İşğal edilmiş torpaqlarda Ermənistan tərəfindən qurulmuş istehkamlar onu göstərir ki, onlar bu torpaqları bizə vermək fikrində deyildilər. Sadəcə olaraq, bizi və beynəlxalq vasitəçiləri aldadırdılar. Sadəcə olaraq, vaxtı uzadırdılar və bununla bərabər işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparırdılar, Laçın şəhərində minlərlə insanı yerləşdiriblər, Kəlbəcərdə minlərlə insanı yerləşdiriblər. Bu gün işğaldan azad edilmiş torpaqlarda da - Füzuli, Cəbrayıl və digər rayonlarımızda da onlar bizim kəndlərimizdə yaşayıblar. O kəndlərin böyük hissəsi dağıdılıb, ancaq bəzi evlərdə onlar bizim torpağımızda yaşayıblar. Azərbaycanlılara qarşı etnik təmizləmə aparmaq, azərbaycanlılara qarşı soyqırımı törətmək, bizim vətəndaşlarımızı doğma torpaqdan didərgin salmaq və ondan sonra "referendum" keçirmək tamamilə insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Heç kim qondarma "Dağlıq Qarabağ respublikasını" tanımayıb. İndi onlar əlləşirlər, vurnuxurlar ki, dünya ölkələri qondarma kriminal qurumu tanısınlar.** Ağıllarını itiriblər, başa düşmürlər ki, heç kim bunu etməyəcək, başa düşmürlər ki, bunu edən hər bir ölkə artıq Azərbaycan üçün dost ölkə sayıla bilməz. Nəinki dost ölkə, bu ölkə ilə biz bütün əlaqələri kəsəcəyik. Amma onlar ağılını itiriblər. Bu gün çalışırlar ki, status-kvonu bərpa etsinlər. Mən demişəm, status-kvo yoxdur. Status-kvonu biz məhv etmişik və düz də etmişik. 30 ilə yaxın gözləmişik. On il bundan əvvəl Minsk qrupunun həmsədrləri, onların prezidentləri səviyyəsində açıqlama verilmişdir ki, status-kvo qəbuledilməzdir. Biz də bunu dəstəklədik, biz bunu bəyəndik və bizdə böyük ümidlər yarandı, ondan sonra danışıqlar masasında əldə edilmiş müəyyən tərəqqi bizim ümidlərimizi artırdı. Amma sən demə, mənfur düşmən, sadəcə olaraq, bizi və beynəlxalq aləmi aldadırdı. Bu, beynəlxalq vasitəçilərə hörmətsizlikdir.

Biz döyüş meydanında güc göstərərək status-kvonu dəyişdirdik. Mən bunu bu toqquşmalardan əvvəl demişdim, bir neçə dəfə demişdim, bu gün əfsuslar olsun ki, beynəlxalq münasibətlərdə beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi çoxdan icra edilərdi. Biz iyirmi il gözləyirdik ki, bu qətnamələr icra edilsin. Onlar, sadəcə olaraq, kağızda qaldı. Nə üçün? Çünki siyasi iradə göstərilmədi, bu qətnamələrin icra mexanizmi müəyyən edilmədi. Mənfur düşmən hesab etdi ki, o, bundan sonra da buna məhəl qoymaya bilər. Bundan sonra da beynəlxalq hüququ əzə bilər. Bundan sonra da bizim torpaqlarımızda istənilən çirkin əməllər törədə bilər. Biz onları məcbur etdik. Bax, bizim yumruğumuz, sadəcə olaraq, düşmənin başını yaran yumruq deyil. Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyidir, məqsədyönlü fəaliyyətdir, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir.

Mən görürdüm, bəzi hallarda bu hadisələrə qədər Azərbaycan vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq qanun çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. BMT Təhlükəsizlik Şurasının qətnamələri işləmirdi. Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni, budur bu münaqişənin həlli üçün əsas. Ona görə bu gün artıq özünü lap dilənçi kimi, lap düşük kimi, - bağışlayın, ifadəmə görə, amma onlar hər bir ifadəyə layiqdirlər, - aparan Ermənistan rəhbərliyi gecə-gündüz bütün beynəlxalq təşkilatlara zəng edir, məktublar göndərir, bəyanatlar verir ki, niyə, səsinizi çıxarmırsınız? **Onlar necə səsini çıxara bilərlər? Onlar artıq bu qətnamələri, bu qərarları qəbul ediblər və Azərbaycan döyüş əməliyyatını beynəlxalq birlik tərəfindən tanınan öz ərazisində keçirir. Biz Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirmirik, - bizim belə planlarımız yoxdur, - baxmayaraq ki, onlar Gəncəni Ermənistan ərazisindən iki dəfə bombalamışdılar. Biz cavab vermədik onların yolu ilə. Biz döyüş meydanında cavab verdik. Mən bildirmişdim ki, biz onların intiqamını döyüş meydanında alacağıq və alırıq. Biz şəhidlərimizin qanını yerdə qoymayacağıq və qoymuruq. Bax, beynəlxalq təşkilatlarda bizim fəaliyyətimizin əsas məqsədi o idi ki, bu hüquqi baza təkmil olsun, genişlənsin və biz buna nail ola bildik.**

Ona görə, bu gün Ermənistan rəhbərliyi yaxşı fikirləşməlidir. Artıq bizim qarşımızda diz çöküb, onlara diz çökdürmüşük, onlara layiq olan yeri göstərmişik. Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq! Hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü. Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?". Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq. Otuz il bizi təhqir edirdi. Otuz il idi ki, işğal edilmiş torpaqlarda abidələrimizi dağıdırdı, tarixi-mədəni irsimizi silmək istəyirdi. Otuz il ərzində beynəlxalq aləm nə üçün sanksiya tətbiq etmədi təcavüzkar dövlətə qarşı? Mən dəfələrlə demişəm ki, sanksiyalar tətbiq edilməlidir. Bu ölkə, bu ölkənin rəhbərliyi öz xoşu ilə bu torpaqlardan çıxmaq istəmir. O, bizi aldadır, danışıqların imitasiya üçün aparır. Onlara inam yoxdur və mən haqlı çıxdım. İndi baxın orada qurulmuş istehkamlara. Belə istehkam quran ölkə, bu qədər oraya vəsait xərcləyən ölkə oradan çıxarmı? Çıxmaq istəsəydilər, bunu etməzdilər. Yəni, onların hər bir sözü yalandır. Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur. Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir. Amma özlərinə sığışdıra bilmirlər, çünki miflər dağılır, miflər onların ideologiyasının əsasıdır. Tarix haqqında yalan. Əfsuslar olsun ki, onu da indi bir çox ölkələrə qəbul etdirə biliblər, tarixi yalanı. Xocalı haqqında yalan, guya ki, Azərbaycan özü Xocalı soyqırımını törədib. Gən-

cənin bombalanması haqqında onların rəsmi nümayəndələri yalan bəyanat veriblər ki, Ermənistan bu raket atəşini təşkil etməyib. Nə vicdan var, nə əxlaq var, nə mənəviyyat var. Ağıl da yoxdur. Ağıl olsaydı deyərdilər ki, baxın, bu ballistik raketin start nöqtəsi və atış istiqaməti dünyada aparıcı ölkələr tərəfindən izlənilir, haradan atılıb, hara dəyib. Ballistika raketlərə döyüş tapşırığı verilir. O təsadüfən o yaşayış massivinə düşməmişdir. Gecə vaxtı, qəsdən. Amma ağıllarını itiriblər, guya, dünyanı aldatmağa davam edirlər ki, bəs kim atıb Gəncəyə bu raketi? Biz özümüzə atmışıq? Necə ki, yalan danışırdılar, Azərbaycan özü Xocalı soyqırımını törədib, indi də yalan danışırlar. Bütün dünyaya yalan danışır, bütün müsahibələrdə yalan danışır. Bu yalançıları biz bundan sonra da qovacağıq. Onlar gördülər ki, kim kimdir. Gördülər ki, biz onlara elə dərs veririk ki, bu dərsi heç vaxt unutmayacaqlar. İndi isə imdad diləyirlər. Ona-buna zəng edirlər, kömək edin, kömək edin! Bəs, hanı sənin “müzəffər ordun”, hanı sənin “yenilməz ordun?!”. Bizim üçün müqəddəs olan Cıdır düzündə Ermənistanın baş naziri sərxoş vəziyyətdə rəqs edirdi. Fikirləşməli idi ki, bu təhqir Azərbaycan xalqına necə təsir edə bilər? Amma hesab edirdi ki, heç kim onlara toxunmayacaq. Hesab edirdi ki, bütün ölkələr onları bundan sonra da müdafiə edəcək, dünya erməniliyi, erməni lobbiləri, ondan sonra onların bəzi dost ölkələri. Ona görə azğınlaşmışlar, ona görə qudurmuşlar. Onlara yerlərini göstərdik, onların başından elə zərbə vurduq ki, çətin ayılsınlar. Onların ordusunu, texnikasını demək olar ki, məhv etmişik. Qaçırlar, hələ qaçacaqlar.

Bir sözlə, döyüş meydanında bizim üstünlüyümüz artıq heç kimə sirr deyil. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik. Bundan sonra da bu addımlar atılacaq. Ermənistan hələ nə qədər gec deyil bəyanat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər.

**Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz “Twitter” hesabımda, “Twitter” vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq? Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda, azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda, təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik. Çox çətin məsələdir.**

Gün gələcək, bu haqda geniş məlumat veriləcəkdir. Əminəm, Azərbaycan xalqı yaxşı başa düşür ki, bu gün nəyi demək mümkündürsə onu deyirik. Çünki döyüşlər gedir və biz istəyirik ki, tezliklə bu döyüşlər başa çatsın, tezliklə ərazi bütövlüyümüz bərpa edilsin. Ona görə hesab edirəm ki, Azərbaycan ictimaiyyətinə verilən məlumat və məlumatın həcmi tam kifayətdir.

**Bu gün ənənəyə, gözəl ənənəyə sadiq qalaraq Azərbaycan xalqına yeni bilgilər vermək istərdim. Düşmənin məhv edilmiş və hərbi qənimət kimi götürülmüş texnikaları ilə bağlı məlumatı əziz xalqıma çatdırıram.**

**Beləliklə, düşmənin 241 tankı məhv edilib, 39 tank hərbi qənimət kimi götürülüb - toplam 280 tank. Amma yenə də hələ ki, tanklar var, həm işğal edilmiş torpaqlarda, həm Ermənistan ərazisində. Haradandır onlarda bu qədər tank? Bir də ki, bu, bütün bu məsələni tənzimləyən beynəlxalq konvensiyalara ziddir. Bəs bu konvensiyalara monitorinq aparmalı olan qurumlar niyə buna fikir verməyiblər? Bax, biz deyirik 241 tank məhv edilib. Biz sonra onların nümayişini təşkil edəcəyik. 39 tank saz vəziyyətdə götürülüb və bu gün bizim əsgərlərimiz o tanklarda oturub düşmənə onların öz tankları ilə atəş açırlar.**

**Piyadaların 50 döyüş maşını məhv edilib, 24-ü qənimət kimi götürülüb və bu gün bizim əlimizdədir. Özüyeriyən 17 artilleriya qurğusu məhv edilib, 198 top məhv edilib. 58 minaatan məhv edilib, 12 minaatan qənimət kimi götürülüb. 25 qumbaraatan hərbi qənimət kimi götürülüb. 53 tank əleyhinə vasitə məhv edilib. 70 “Qrad” qurğusu məhv edilib. İki “Uraqan”, iki “YARS” məhv edilib. Bir TOS məhv edilib. Dörd “S-300” zenit-raket kompleksi məhv edilib. Son dəfə mən bu məlumatı Azərbaycan ictimaiyyətinə çatdıranda iki “S-300” zenit-raket kompleksi məhv edilmişdi. Bu gün artıq dörd kompleks məhv edilib. Hər bir kompleksin, hər bir qurğunun qiyməti bəllidir, çox bahalı hərbi texnikadır. Üç TOR zenit-raket kompleksi məhv edilib. Qırxa yaxın OSA zenit-raket kompleksi məhv edilib. Beş KUB və KRUQ zenit-raket kompleksi məhv edilib. Altı pilotsuz uçuş aparatı, iki əməliyyat-taktiki raket kompleksi - “Elbrus”, bir ballistik raket, bir “Toçka-U” raketi, səkkiz radioelektron mübarizə vasitəsi məhv edilib. 198 yük avtomobili məhv edilib. Onlardan 15-i sursatlarla dolu yük avtomobilləri idi. 102 yük avtomaşını hərbi qənimət kimi götürülüb. Biz düşmənin hərbi texnikasını bundan sonra da məhv edəcəyik. Olan-qalan da məhv ediləcəkdir.**

**İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.**

**Füzuli rayonu – azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.**

**Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.**

**Xocavənd rayonu – azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!**

**Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!**

**Əziz xalqım, əziz zəngilanlılar, füzulilər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!**

**Qarabağ bizimdir!**
**Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!**

**Bakı, 20 oktyabr 2020-ci il**

# Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi “Instagram” səhifəsində paylaşım edib. Paylaşımda deyilir:

“Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! **Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”.**



# Mülki şəxsləri və yaşayış məntəqələrini bombalayan Ermənistan müharibə cinayəti törədir



“Azərbaycana Türkiyə Böyük Millət Məclisində təmsil olunan dörd fərqli siyasi partiyanın parlament qruplarından olan dostlarımızla birlikdə səfərə gəlmişik. Səfər çərçivəsində Bakıda bir sıra görüşlərimiz oldu. Bu müharibədə dinc əhaliyə qarşı cinayətin ən dəhşətlisi, mülki şəxslər arasında ölüm sayının ən çox olduğu məhz Gəncə şəhəridir. Azərbaycana səfərimiz zamanı Gəncəyə gəlməyimiz bütün diqqəti buraya cəlb etmək baxımından da çox vacibdir”.

Bu sözləri Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop oktyabrın 20-də Gəncədə jurnalistlərə müsahibəsində deyib.

Qardaş ölkə parlamentinin Sədri vurğulayıb ki, biz Türkiyə olaraq lap əvvəldən – 1990-cı illərdən bəri Azərbaycanın yanında olduq, işğal altındakı torpaqlarını azad etməsi üçün apardığı mübarizəsində daim Azərbaycanı dəstəklədik. Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın bütün azərbaycanlı qardaşlarımıza salamı var. Biz dost və qardaş Azərbaycanı haqlı mübarizəsində hər zaman dəstəkləmişik və dəstəkləyirik.

**Mustafa Şentop bildirib:** “Gəncədə gördüyümüz mənzərə, eləcə də digər yaşayış məntəqələrinə qarşı törədilən hücumlar göstərir ki, mülki şəxsləri, yaşayış məntəqələrini bombalayan Ermənistan müharibə cinayəti törədir. Azərbaycanı bu haqlı mübarizəsində dəstəkləmək, haqq səsimizi, bu yaşananları bütün dünyaya çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Qarabağ Azərbaycan torpağıdır. Bu, tarix boyu belə olub. Bugünkü beynəlxalq hüquqda da Qarabağın Azərbaycanın ərazisi olduğu, Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi əksini tapıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının, eləcə də Avropa Parlamentinin, ATƏT-in, Avropa Şurası Parlament Assambleyasının qərarları vardır və bütün dünya Ermənistanı işğalçı kimi tanıyır. Bu baxımdan Ermənistan Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidir”.

*“Ermənistanın mülki şəxslərə qarşı hücumlarının açıq-aşkar müharibə cinayəti olduğunu vurğulayan Türkiyə Böyük Millət Məclisinin Sədri deyib: “Cenevrə konvensiyalarına görə, müharibənin bir hüququ, qaydası var: döyüşlərdə ancaq hərbi hədəflər vurulmalı, mülki şəxslər atəşə tutulmamalıdır. Ermənistan isə müharibənin hüququna və qaydalarına əməl etmədən, namərdcəsinə mülki şəxsləri hədəfə almaqdadır. Bunu bütün dünya görməlidir.*

*Türkiyə olaraq daim Azərbaycanın yanındayıq. Azərbaycanın haqlı mübarizəsini biz də Azərbaycan qədər müdafiə edirik. İnşallah, qısa zamanda Azərbaycan Ordusu Vətən torpaqlarının işğal altındakı hissəsini də azad edəcək. Haqlı olan Azərbaycandır. Çünki Azərbaycan öz torpaqlarını azad etmək üçün Vətənini müdafiə edir. Biz də Türkiyə olaraq bunu daim dəstəklədik və bundan sonra da dəstəkləyəcəyik.* ***Qarabağ Azərbaycandır!”.***

# “Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq”

**Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.**



**Prezident İlham Əliyev bildirib:**
- Ölkəmiz üçün bu çətin bir dövrdə Sizin gəlişiniz xüsusi məna daşıyır. Bu, bir daha Türkiyənin Azərbaycana göstərdiyi qardaşlıq münasibətinin təzahürüdür, həmrəyliyin təzahürüdür. Biz bu hadisələr baş verəndən dərhal sonra Türkiyənin dəstəyini hiss etdik, bu gün də hiss edirik. Əziz qardaşım, hörmətli Prezident çox müsbət və çox dəqiq açıqlamalar vermişdir. Bu açıqlamalar Azərbaycan xalqını çox məmnun etdi, bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq. Mən bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, əgər bu açıq mövqe göstərilməsəydi, bu gün başqa qüvvələr bu işlərə qarışa bilərdi. Onsuz da Ermənistanın məqsədi bundan ibarətdir, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək istəyirlər və çox yanlış yoldadırlar. Çünki görürlər ki, bizim qarşımızda təkbaşına duruş gətirə bilmirlər. Döyüş meydanında biz onları məğlub edirik. Hər gün cəbhədən çox gözəl xəbərlər gəlir. Bu gün səhər mən yeni kəndlərin azad edilməsi haqqında məlumat vermişəm. Azərbaycan Ordusu zəfər marşındadır və qarşımızda duran bütün vəzifələr yerinə yetirilir.

Türkiyə dövlətinin və xalqının dəstəyi xüsusi önəm daşıyır. Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq. Həm Türkiyə Böyük Millət Məclisinin açıqlamaları, Sizin, hörmətli cənab Sədr, açıqlamalarınız, nazirlərin açıqlamaları, Türkiyədən adi vətəndaşlardan mənə gələn məktublar böyük həmrəyliyin təzahürüdür.

Bu mövqeyə, qardaşlıq mövqeyinə görə və gəldiyiniz üçün bir daha Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, səfəriniz bizim qardaşlıq əlaqələrimizin tarixində yeni gözəl səhifə olacaqdır.

**Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop:** İnşallah. Xoş gördük, cənab Prezidentim. Əvvəla, Türkiyədən hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırmaq istəyirəm. Türkiyə Böyük Millət Məclisindən deputatlarımızın hamısının Sizə salamları var, parlamentimizin duaları sizinlədir.

Burada fərqli partiyalardan dostlarımız var. Biz təmsilçilik qabiliyyəti yüksək olan bir heyətlə gəldik, dəstəyimizi ifadə etmək istədik.

Bunu Türkiyədə hər zaman deyirik, Tovuz hücumlarında da Məclisimizdə dörd siyasi partiya bir açıqlama vermişdi, 27 sentyabrdan sonra da bir daha açıqlama verdi. Amma bütün bunları bir də Bakıda təkrarlamaq, söyləmək istədik. Millətimizin də dəstək və duaları daim Azərbaycanladır, Sizinlədir. Azərbaycanın uğuru, müvəffəqiyyəti üçün dua edirik, o sevindirici xəbərləri aldıqca da bütün millət olaraq sevinirik. Allah müvəffəq etsin, zəfər nəsib etsin.

**Təbii ki, Türkiyənin Azərbaycana dəstəyinin təməli dostluq və qardaşlıqdır. Zati-aliləri, Sizin də dediyiniz kimi, dünyada Azərbaycan-Türkiyə dostluğuna, qardaşlığına bənzər ikinci ölkə yoxdur. “Bir millət, iki dövlət” deyirik. Bunun tarixi əsasları var. Axşam Şəhidlər xiyabanında idik, orada Türkiyədəki 34 vilayətimizdən şəhidlər var, onlar burada uyuyurlar, adları məzar daşlarında var. Biz Türkiyə olaraq Azərbaycanın çətin günündə burada - Azərbaycanın yanında olmuşuq, onun kədəri bizim kədərimiz, sevinci isə bizim sevincimizdir. Bu, həm də sizin üçün də eynidir. Siz Yunanıstan səfirini qəbul edərkən verdiyiniz açıqlama Türkiyədə çox böyük diqqətlə, sevinclə izlənildi və çox yüksək dəyərləndirildi.**

Bizim Azərbaycana dəstəyimiz təkcə dostluqla bağlı deyil, bu mübarizə Azərbaycanın haqlı mübarizəsidir. Həm tarixən haqlıdır, çünki Dağlıq Qarabağ tarix boyunca, yüz illərlə həmişə Azərbaycan torpağı, Azərbaycan Vətəninin bir hissəsi olub. Sovet dövründə də, Çar Rusiyası dövründə də belə olub. Azərbaycan beynəlxalq hüquq baxımından da haqlıdır.

# Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop Milli Məclisdə çıxış edib

Oktyabrın 20-də Milli Məclisin payız sessiyasının növbəti iclası keçirilib.
İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopu və onun rəhbərlik etdiyi nümayəndə heyətini Milli Məclisdə salamlayıb.
Milli Məclisin Sədri Azərbaycanın və Türkiyənin qanı, canı bir olan qardaş xalqlar olduğunu bildirib: "Ölkələrimiz arasında münasibətlər ulu öndər Heydər Əliyevin ifadə etdiyi "bir millət, iki dövlət" prinsipi üzərində qurulub. Bizim dostluğumuz və qardaşlığımız əbədi və sarsılmazdır. Azərbaycan və Türkiyə həmişə bir-birinə güvəniblər, güvənirlər və güvənəcəklər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər yaxın olsun. Azərbaycan daim Türkiyəni yanında hiss edib, onun qardaş köməyinə arxalanıb".
Sahibə Qafarova qeyd edib ki, Ermənistanın silahlı təxribatına və işğalçılıq siyasətinə son qoymaq üçün Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatları zamanı dünya bu qardaşlığın bir daha şahidi oldu. Prezident Rəcəb Tayyib Ərdoğanın, Türkiyənin siyasi, hərbi və dövlət xadimlərinin verdiyi bəyanatlar və tutduğu qəti mövqe hər kəsə göstərdi ki, Azərbaycan xalqı haqq işi uğrunda mübarizədə tək deyil. Türkiyə hər yerdə Azərbaycanın yanındadır. Bu gün Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun Azərbaycanda olması da bizim birliyimizin və qardaşlığımızın daha bir ifadəsidir.
Milli Məclisin Sədri daha sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun həyat və fəaliyyəti haqqında deputatlara məlumat verib.
Sonra Milli Məclisdə çıxış edən Mustafa Şentop Prezident Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin və türk millətinin Azərbaycana salamlarını çatdırıb. O bildirib ki, bu ali məclisdə Azərbaycanın haqlı davasına və şanlı mübarizəsinə dəstək verən fərqli partiyalardan olan millət vəkilləri ilə birlikdə iştirak edir. Otuz ilə yaxındır ki, Azərbaycanın qədim torpaqlarının beşdəbiri işğal altındadır. Türkiyə də bu günə qədər olduğu kimi, bundan sonra da haqlı davasında və Vətən müharibəsində can qardaşlarının yanında yer alacaq. Türkiyə və Azərbaycan dünyada başqa iki ölkə arasında bənzəri olmayan yaxın münasibətlərə malikdir.
Gücü qəhrəman Azərbaycan əsgərlərinə çatmayan, cəbhədə qəhrəman Azərbaycan Ordusu qarşısında arxaya baxmadan qaçan Ermənistan əsgərləri məsum mülki insanları öldürməyə, mülki hədəflərə hücum etməyə davam edir. Bu gün Qafqazın və bölgəmizin yenidən sülhə və sabitliyə qovuşması, yalnız və yalnız Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını dərhal tərk etməsi ilə mümkün ola bilər. Dövlət başçısı İlham Əliyevin də ifadə etdiyi kimi, Azərbaycanın bir 30 il də gözləməyə vaxtı yoxdur.
Mustafa Şentop diqqətə çatdırıb ki, beynəlxalq ictimaiyyət ikiüzlü yanaşmalardan artıq əl çəkməlidir. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə var. Ermənistan ordusunun işğal etdiyi torpaqlardan dərhal, qeyd-şərtsiz və tam olaraq çəkilməsi tələb edilən bu qətnamələri rəsmi Yerevan indiyə qədər heçə sayıb.
ATƏT-in Minsk qrupu problemi həll etmək üçün indiyə qədər heç bir irada göstərməyib.
TBMM-in Sədri qeyd edib ki, Ermənistan keçmişdə törətdiyi cinayətlərin cəzasını çəkmədiyinə görə fürsət tapdıqca yenidən Azərbaycan torpaqlarına hücum edir. Ancaq bu dəfə heç gözləmədiyi bir reaksiya ilə qarşılaşdı. Qəhrəman Azərbaycan Ordusu Ermənistanın təcavüzlərinə cavab vermək və Qarabağı işğaldan azad etmək üçün sürətlə hərəkətə başladı. Qarabağdakı bir çox ərazilər işğaldan azad edildi. İnşallah, bütün torpaqlar işğaldan azad ediləcək.



Mustafa Şentop bildirib ki, tarixin gedişinin dəyişməyə başladığı günlərdən keçirik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının islahatlara ehtiyacı var. İkili standartlardan uzaq, bütün dövlətlərin bərabərliyinə əsaslanan, bütün insanların bərabərliyinə inanan yeni bir dünyanın qurulması lazımdır.
Çıxışının sonunda TBMM-in sədri Mustafa Şentop Türkiyənin bundan sonra da Azərbaycanın haqq işində onun yanında olacağını bir daha vurğulayıb.
Milli Məclisin Sədri Sahibə Qafarova Mustafa Şentopun çıxışını Azərbaycan parlamentinin tarixinin ən önəmli səhifələrindən biri kimi dəyərləndirib.
Fasilədən sonra Sahibə Qafarova çıxış edərək qeyd edib ki, son dövrdə Milli Məclisin hər iclasında biz Azərbaycan Ordusunun xalqımıza yaşatdığı qələbə sevinclərini bölüşürük. Hər gün əsgər və zabitlərimiz döyüş meydanlarında qəhrəmanlıq nümunələri göstərir, yeni-yeni yaşayış məntəqələrimizi düşmən tapdağından azad edirlər.
Spiker bildirib ki, Vətən müharibəsində bizim hədəfimiz bəllidir. Bu hədəfi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəqiq müəyyən edib: "...Ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli vəzifədir.
...Bu gün müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır və çatacaq, bizim ərazi bütövlüyümüz bərpa edilir və ediləcək.
Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz".
Çıxışının sonunda Sahibə Qafarova döyüş meydanlarında və dinc yaşayış məntəqələrimizdə şəhid olan insanlarımıza Allahdan rəhmət diləyib, yaralılarımızın tezliklə sağalmasını arzulayıb.
Sonra deputatlar cari məsələlərlə bağlı fikirlərini bildiriblər. Komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, Qənirə Paşayeva, Hicran Hüseynova, deputatlar Fəzail Ağamalı, Əli Məsimli, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Jalə Əliyeva, Sahib Alıyev, Fatma Yıldırım, Musa Qasımlı, Malik Həsənov, Əziz Ələkbərov bildiriblər ki, bu taleyüklü günlərdə Türkiyə Böyük Millət Məclisi Sədrinin ölkəmizə səfəri Azərbaycan dövlətinə, onun rəhbərinə göstərilən ehtiramdır. Bu qardaşlıq münasibəti bizim siyasi mövqeyimizi möhkəmləndirir.
Qeyd edilib ki, Ali Baş komandanın rəhbərliyi ilə qəhrəman əsgərlərimiz işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda ciddi addımlar atırlar. Xalqımız öz tarixinin önəmli səhifələrini yazır. Son 30 ildə ilk dəfə Azərbaycan xalqı işğal olunmuş torpaqlarının geri qaytarılmasına nail olur. Bu gün bizim əsas gücümüz xalq, dövlət və ordu birliyindədir. Bu gün hər bir Azərbaycan vətəndaşı ölkə Prezidentinin ətrafında sıx birləşib.
Sonra iclasın gündəliyinə daxil edilmiş qanun layihələrinin müzakirəsinə başlanılıb.

## Elman Rüstəmov milli iqtisadiyyatın vəziyyətini açıqlayıb

"Bu ilin əvvəlində biz gözlənilmədən çox ciddi xarici şoklarla üz-üzə gəldik".
Bunu AzTV-nin efirində Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib.
"Bütövlükdə koronavirus (COVID-19) pandemiyası, iqtisadi fəaliyyətin məhdudlaşdırılması, neft qiymətlərinin aşağı düşməsi, neft hasilatının azalması ilə bağlı OPEC+ sazişinə qoşulmağımız və sentyabr ayından Ermənistanın hərbi təcavüzü, təbii olaraq iqtisadiyyat üçün ciddi sınaq, ciddi şokdur. Ancaq hazırda iqtisadi terminologiya ilə desək, milli iqtisadiyyat ideal ştorm vəziyyətindədir.
Lakin vaxtında görülən tədbirlər, atılan addımlar bu gün imkan verir ki, Azərbaycan bu şokları minimallaşdırsın. Bu gün bizim iqtisadiyyatımız özünü normal hiss edir və biz tam olaraq makroiqtisadi sabitliyi qoruya bilmişik. İllik inflyasiya 3%-dən aşağıdır, milli valyutamız başqa ölkələ-



rin valyutalarından fərqli olaraq sabitliyini qoruyub saxlaya bildi. ÜDM-in baza sahələrində həm sənayə, həm də kənd təsərrüfatına əhəmiyyətli artıma nail olduq. Biz makroiqtisadi sabitliyi saxlamaqla və iş yerlərini qorumaqla, bütövlükdə gələn il iqtisadi artımı bərpa etmək və sürətləndirmək üçün yaxşı bir plastarm saxlamışıq", - o qeyd edib.

* * *

"Azərbaycanla müharibə Ermənistan iqtisadiyyatını çökdürər". Bu sözləri AzTV-nin efirində Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib.
O, bildirib: "Azərbaycan və Ermənistan iqtisadiyyatları arasında kəmiyyət müqayisəsi aparsaq, deyə bilərik ki, bizim dövlət büdcəmiz Ermənistanın ümumi daxili məhsulunun (ÜDM) dəyərindən çoxdur, o cümlədən bizim xarici valyuta (qızıl) ehtiyatlarımız onların ehtiyatlarından 30 dəfə çoxdur".
"Ermənistan xarici dövlət borcuna nəzarət edə bilmir, bu borcun ümumi daxili məhsula (ÜDM) nisbəti 60%-ə çatıb. Azərbaycanda isə bu nisbət 20%-dən aşağıdır. Bu gün Ermənistan əhalisinin 1/5 kasıblıq həddindən də aşağı səviyyədə yaşayır, ancaq Azərbaycanda kasıblıq radikal olaraq həll edilib. Bu gün iqtisadiyyatın hər bir sahəsində biz onlardan üstünük. Bu cür maliyyə imkanları ilə müharibənin bir neçə ay uzanması Ermənistan iqtisadiyyatını, maliyyə sistemini çökdürər, kollapsa gətirib çıxara bilər", – o qeyd edib.

## Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsi 213 milyon dollardan çox olub

Yanvar-sentyabr aylarında Azərbaycan və Belarus arasında ticarət dövriyyəsi 213 milyon dollardan çox olub.
Bu barədə Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib. Hesabat dövründə Belarusdan Azərbaycana ixracın dəyəri 82,5 milyon dollar, ölkəmizdən Belarusa isə 131 milyon dollar təşkil edib.
Qeyd edək ki, 2019-cu ildə Azərbaycanla Belarus arasında idxal-ixrac əməliyyatlarının dəyəri 227 milyon dolları ötüb, bu da 2018-ci illə müqayisədə 23 milyon dollar çoxdur.



## Azərbaycanla Ukraynanın ticarət dövriyyəsi 600 milyon dollara yaxın olub



Yanvar-sentyabr aylarında Azərbaycan və Ukrayna arasında idxal-ixrac əməliyyatlarının dəyəri 590 milyon dolları ötüb.
Ukrayna Dövlət Statistika Komitəsindən bildirilib ki, 9 ayda Azərbaycan bu ölkəyə 280,5 milyon dollarlıq məhsul ixrac edib. Ölkəmizin Ukraynadan idxal etdiyi məhsulun dəyəri isə 309,7 milyon dollar olub.
Qeyd edək ki, Ukrayna postsovet məkanında Azərbaycanla ticarət dövriyyəsinə görə Rusiyadan sonra ikincidir. Keçən il Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi 808 milyon dollara çatıb.

# ELMƏ HƏSR OLUNMUŞ HƏYAT

**25 oktyabr 2020-ci ildə görkəmli iqtisadçı alim, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun baş elmi işçisi, iqtisad elmləri doktoru, professor, Əməkdar elm və texnika xadimi, RAE-nin müxbir üzvü Cəbiyev Rauf Mirzə oğlunun 85 yaşı tamam olur.**



Rauf Cəbiyev Bakı şəhərində, ziyalı ailəsində dünyaya göz açmışdır. Atası - texnika elmləri namizədi, dosent Cəbiyev Mirzə Balayar oğlu uzun müddət Bakının müxtəlif fabrik və müəssisələrində baş mühəndis işləmişdir. Sonralar Azərbaycan KP MK-nın Bakı Ali Partiya Məktəbində dekan vəzifəsində çalışmışdır. Onun anası, respublikanın Əməkdar Həkimi Bağırova Nisə xanım ömrünün sonunadək F.Əfəndiyev adına klinik xəstəxanada həkim işləmişdir.

Rauf Cəbiyev 1954-cü ildə Bakı Maliyyə-Kredit Texnikumunu Dövlət gəlirləri ixtisası üzrə bitirib. Elə həmin ildə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun sənaye iqtisadiyyatı fakültəsinə daxil olub. Lakin birinci kursdan Sovet Ordusu sıralarına çağırılıb və 1954-57-ci illərdə hərbi xidmətdə olub.

Hərbi xidmətini bitirdikdən sonra R.Cəbiyev, adıçəkilən institut bağlandığı üçün S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin qiyabi şöbəsinə köçürülmüş və 1965-ci ildə oranın məzunu olmuşdur. Eyni zamanda, universitetdə oxuduğu müddətdə (1959-69-cu illərdə) R.Cəbiyev Orconikidze rayon maliyyə şöbəsində müfəttiş, baş müfəttiş, böyük iqtisadçı, dövlət gəlirləri müfəttişliyi üzrə rəis işləmiş, 1969-72-ci illərdə Azərbaycan Nazirlər Kabinetinin Qiymət Komitəsində baş müfəttiş-nəzarətçi və şöbə müdirinin müavini vəzifələrində çalışmışdır.

1972-ci ildən 1976-cı ilədək R.Cəbiyev Azərbaycan Nazirlər Soveti yanında Quşosdor Avtomobil Yolları İdarəsində planlaşdırma və maliyyə şöbəsinin müdiri, 1977-ci ildən 1982-ci ilədək Azərbaycan Dövlət Plan Komitəsinin nəzdindəki Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda sektor müdiri vəzifələrində çalışmışdır. 1982-85-ci illərdə Dövlət Plan Komitəsində yeni planlaşdırma metodlarının tətbiqi və iqtisadi təşviqat şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Prof. R.Cəbiyev 1985-90-cı illərdə Azərbaycan Dövlət Plan Komitəsinin nəzdindəki ETİİ-də sektor müdiri, sonralar isə 1997-ci ilə qədər Azərbaycan Dövlət İqtisadiyyat İnstitutunun “Sənaye iqtisadiyyatı” kafedrasının dosenti, kafedra müdiri vəzifələrində çalışmışdır. 1997-ci ildən 2007-ci ilədək İqtisadiyyat Nazirliyinin nəzdində olan İqtisadi İslahatlar Mərkəzində şöbə müdiri işləmiş və 2007-ci ildən bu günə kimi Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun baş elmi işçisi vəzifəsində çalışır.

Hələ 60-cı illərdə Rauf Cəbiyev Azərbaycanda ilk dəfə mənfəət və onun təkmilləşdirilməsinin hərtərəfli tədqiqinə başlamış, 1967-ci ildə D. Bün-yatzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun aspiranturasına daxil olmuşdur. Doktorluq dissertasiyasının mövzusu “Mənfəət və onun yeni iqtisadi şəraitdə stimullaşdırıcı rolu” idi. Lakin o illərdə mənfəətin kapitalist kateqoriyası olması səbəbindən R.Cəbiyevin dissertasiyasını müdafiə etməsinə icazə verilmədi. "Dissertasiyadakı mövzunun adını “mənfəət” əvəzinə “rentabelliyə” dəyişdirin və bundan sonra müdafiə edə bilərsiniz”, - deyirdilər ona. Lakin R.Cəbiyev mövzunun adını dəyişmədi. 70-ci illərdə SSRİ Nazirlər Sovetinin və Mərkəzi Komitəsinin qərarı ilə mənfəət əsas göstəricilər səviyyəsinə qaldırıldı və bundan sonra R.Cəbiyevə namizədlik dissertasiyasını müdafiə etməyə icazə verildi və 1971-ci ildə o, maliyyə, pul dövriyyəsi və kredit ixtisası üzrə "Yeni iqtisadi şəraitdə mənfəət və onun stimullaşdırıcı rolu" mövzusunda iqtisad elmləri namizədi alimlik dərəcəsi üçün dissertasiya müdafiə etmişdir. Əfsuslar olsun ki, bu müddət ərzində 12 il itirildi. 1980-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən, 23 aprel qərarı ilə R.Cəbiyevə iqtisadiyyat, xalq təsərrüfatının idarəetmə və planlaşdırma ixtisası üzrə baş elmi işçi adı verildi.

Bütün bu müddətdə Rauf müəllim vaxtını boş keçirməmişdi. O, bir sıra məqalə və monoqrafiyalarını - "İqtisadi mexanizm və onun təkmilləşdirilməsi problemləri" (Bakı), "Respublika sənayesində yenidənqurma" (Moskva), "İqtisadi mexanizmin yekun nəticələri - yaxşılaşdırma" (Bakı) dərc edir.

Qeyd etmək lazımdır ki, 80-ci illərdə ölkənin müəssisə və təşkilatlarının alim və praktiki işçilərinin köməyi ilə idarəetmə mexanizmlərinə yeni planlaşdırma və iqtisadi təşviq metodları tətbiq edilmişdi.

Rauf Cəbiyev çoxsaylı elmi işləri ilə idarəetmə praktikasına normativ təmiz və şərti təmiz məhsullar kimi qiymətləndirmələri,bağlanmış müqavilələrə və verilən iş sifarişlərinə uyğun olaraq satılan məhsullar, əmək məhsuldarlığı ilə əməkhaqqı fondu arasındakı standart nisbət və s. tətbiq edən alimlərdən biri idi. Buna görə də R.Cəbiyev Respublikanın Dövlət Plan Komitəsinə yeni planlaşdırma metodlarının tətbiqi və iqtisadi təşviqat şöbəsinin müdiri kimi işə dəvət edildi.

Sonradan bütün bunlar və digər suallar Rauf Cəbiyevin 1980-ci ildə müdafiəyə təqdim etdiyi "Azərbaycan SSR sənayesində təsərrüfat əlaqələrinin inkişafı və təkmilləşdirilməsi" mövzulu doktorluq dissertasiyasının əsasını təşkil etdi. O vaxta qədər R.Cəbiyev 5 monoqrafiya və kitab, müxtəlif beynəlxalq jurnal və yerli qəzetlərdə 100-dən çox məqalə çap etdirdi. Lakin yenə də yolunda bəzi "elm adamları" tərəfindən problemlər yaşandı. Nəticədə dissertasiya müdafiəsinin şərtləri 16 ilə qədər uzadıldı. Mövcud vəziyyətin ümidsizliyini görən R.Cəbiyev Donetsk şəhərinə, Ukrayna EA Sənaye İnstitutuna gedir və burada 3 ay ərzində doktorluq dissertasiyasını müdafiə edir və sənədlər 12 iyul 1991-ci ildə SSRİ Ali Attestasiya Komissiyasına göndərildikdən 20 gün sonra iqtisad elmləri doktoru elmi dərəcəsi alır. Daha sonra, Azərbaycan AAK-nın 29 oktyabr 1993-cü il tarixli qərarına uyğun olaraq ona professor elmi adı verilir.

Xatırladaq ki, SSRİ-nin dağılmasından əvvəl Rauf Cəbiyevin əsərləri İttifaq və beynəlxalq jurnalların səhifələrində dərc edilir. Onlardan «Вопросы экономики», «Плановое хозяйство» və b., iki kitab «Профактиву об эффективности производства» və «Перестройка в республиканской промышленности» 1978 və 1989-cu illərdə «Знание» və «Профиздат» nəşriyyatları tərəfindən Moskvada nəşr olunur. “Социально-экономическое развитие Азербайджанской республики за годы независимости” monoqrafiyasına Moskvadakı keçid dövrünün İqtisadiyyat İnstitutunun əməkdaşları tərəfindən rəy verilmişdir və 2005-ci ildə çap olunmuşdur.

SSRİ dağılandan sonra da R.Cəbiyev xarici və yerli nəşriyyatlarla işini dayandırmadı. 1991-2019-cu illərdə «Вопросы экономики», «Экономика и жизнь» və digər beynəlxalq jurnallarda məqalələri dərc edilmişdir.

Beləliklə, professor R.Cəbiyev həm ölkədə, həm də xaricdə nəşr olunan 17 monoqrafiya və kitab daxil olmaqla 400-dən çox elmi əsər çap etdirmişdir. R.Cəbiyevin «Государственная политика Азербайджана в инновационной сфере» adlı sonuncu monoqrafiyası 2013-cü ildə Berlində nəşr edilmişdir.

Professor Rauf Cəbiyev iqtisadi mexanizm və onun təkmilləşdirilməsi, bazar infrastrukturunun formalaşması və inkişafı, investisiyalar, dövlət mülkiyyətinin özəlləşdirilməsi və sahibkarlığın inkişafı, innovasiyalar və s. haqqında, yaxın və uzaq xarici ölkələrin xüsusi buraxılışlarında və jurnallarında dərc olunmuş fundamental əsərləri ilə tanınır. Professor R.Cəbiyev uzun müddətdir ki, Azərbaycanın Rusiya, Belarus, Qazaxıstan və Ukrayna ilə xarici iqtisadi əlaqələrinin problemləri üzərində işləyir.

Rauf Cəbiyevin nəşr olunan bir sıra monoqrafiya, kitab və məqalələri SSRİ Elmlər Akademiyasının akademiki L.İ.Abalkin; SSRİ Elmlər Akademiyasının müxbir üzvü P.G.Buniç və bu kimi digər tanınmış iqtisadçılar tərəfindən nəzərdən keçirilmişdir, rəy və tövsiyələr verilmişdir.

1978-1989-cu illərdə Rauf Cəbiyev "Sosialist Əməyi" jurnalının Azərbaycan Respublikasındakı ictimai müxbirinin rəhbəri idi.

Prof. Rauf Cəbiyev 1987-ci ildə "Bilik" Cəmiyyəti tərəfindən Bakı işçiləri arasında elmi biliklərin fəal təbliğinə görə təşəkkürnamə, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 26 may 1988-ci il tarixli sərəncamı ilə “Vışka” qəzetinin ilk nömrəsinin 60 illiyi münasibətilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 1990-cı ildə işçilər arasında biliklərin yayılmasında fəal iştirakına görə Lenin Ordenli Ümumittifaq "Bilik" Cəmiyyəti tərəfindən Fəxri Fərmanla təltif edilmişdir.

2018-ci ildə beynəlxalq jurnallarda standartlaşdırma, sertifikatlaşdırma, keyfiyyət və yenilik problemlərinə dair çoxsaylı məqalələrin dərc olunması ilə əlaqədar olaraq prof. R.Cəbiyev "Avropa Keyfiyyəti" qızıl medalı ilə təltif edilmişdir.

Professor Rauf Cəbiyev həm ölkədə, həm də xaricdə müxtəlif illərdə keçirilən 27 beynəlxalq elmi və praktik konfransda iştirak və çıxış etmişdir. 2003-cü ildə Dünya Bankının Azərbaycanda keçirilmiş yoxsulluğun azaldılması yarışına qatılan Rauf Cəbiyev birinci yeri tutmuş və mükafatlandırılmışdır.

2005-ci ildə Azərbaycan Neft Sənayesi Məlumat Mərkəzinin elan etdiyi "Neft və Yoxsulluq" müsabiqəsində iştirak edən R.Cəbiyev 3-cü yeri tutmuş, 2007-ci ilin əvvəlində "Elm, texnologiya və innovasiyanın inkişafı" adlı INTAS qrantını qazanmışdır.

RF-nin Azərbaycandakı səfirliyinin 2007-ci ilin sonunda elan etdiyi "Rusiya-Azərbaycan münasibətləri: sabitlik və qarşılıqlı maraqlar" müsabiqəsində iştirak edən Rauf Cəbiyev 2-ci yeri tutmuş və mükafatlandırılmışdır.

Rauf Cəbiyevin rəhbərliyi və birbaşa iştirakı ilə qaçqınların Azərbaycan Respublikasında yerləşdirilməsi ilə əlaqədar beynəlxalq layihənin iqtisadi bloku tamamlanmışdır. Bundan əlavə, 2004-2008-ci illər üçün Azərbaycan Respublikası bölgələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramının hazırlanmasında iştirak etmişdir. O, "Rusiya və Azərbaycan strateji tərəfdaşdır" mövzusunda jurnalistlərin ikinci müsabiqəsində fəal iştirakına görə RF-nin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirinin diplomuna və pul mükafatına layiq görülmüşdür.

Rauf Cəbiyevin bütün bu illərdəki elmi və praktiki fəaliyyətləri 1999-cu ildə "Kim Kimdir" ensiklopediyasında və 2004-cü ildə "Persona" və "Science" nəşriyyatlarında öz əksini tapmışdır. Bundan əlavə, 2013-cü ilin Böyük İqtisadi Ensiklopediyasında və 2018-ci ildə Azərbaycan Milli Ensiklopediyasında alimin xarakteristikası verilmişdir.

Professor R.Cəbiyev 85 illik yubileyi ərəfəsində innovasiya və rəqabət qabiliyyətlilik mövzusunda bir sıra məqalələr üzərində, habelə Azərbaycanın regionlarının innovasiya sahəsində reytinqlərinin müəyyənləşdirilməsi istiqamətində işləyir və gələcəkdə «Национальная инновационная система Азербайджанской Республики: реалии и перспективы» monoqrafiyasını nəşr etdirməyi planlaşdırır.

Bu gün professor Rauf Cəbiyev onu sevən insanların arasında yaşayır və çalışır - həyat yoldaşı, biologiya üzrə ixtisaslaşmış Cəbiyeva Afət Muxtar qızı hazırda təqaüddədir.

Rauf Cəbiyevin iki qızı - Əliyeva Nailə iqtisad elmləri namizədi, dosent və Cəbiyeva Fidan fəlsəfə doktorudur. Rauf müəllimin üç nəvə və iki nəticəsi var. Professor Rauf Cəbiyevi bu əlamətdar ildönümü münasibətilə təbrik edir, ona cansağlığı, uzun ömür, ailə səadəti və böyük yaradıcılıq uğurları arzulayırıq.

**“İQTİSADİYYAT”**

# Azərbaycan və Ermənistan iqtisadiyyatı: Müqayisəli təhlil




UNEC-də Azərbaycan və Ermənistanın iqtisadi inkişaf göstəricilərinin müqayisəli təhlilinə həsr olunan elmi seminarlara start verilib.

İlk seminarda UNEC nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun (İAETİ) direktoru, əməkdar elm xadimi, professor Yadulla Həsənli hər iki ölkənin makroiqtisadi, enerji və nəqliyyat sektorlarının iqtisadi göstəricilərini müqayisəli təhlil edib. Azərbaycanın ÜDM (4 dəfə), beynəlxalq ehtiyatlar (20 dəfə), enerji təchizatı (4,6 dəfə), nəqliyyatda yükdaşıma (20 dəfədən çox) sektorları üzrə inkişaf göstəricilərinə görə Ermənistandan dəfələrlə üstün olduğu qeyd edilib. UNEC-də aparılmış təhlillərinin nəticəsinə əsasən, Azərbaycan iqtisadiyyatının güclü, Ermənistanın isə zəif olduğu bir daha sübut olunub.

UNEC nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutu tərəfindən 5 gün davam edən seminarlarda hər iki ölkənin makroiqtisadi, enerji, nəqliyyat, səhiyyə, elm, təhsil, İKT, kənd təsərrüfatı, turizm və digər sektorları, eləcə də Azərbaycan və Ermənistan iqtisadiyyatının beynəlxalq reytinqlərdəki mövqeyi müzakirə olunub.

# Enerjidən səmərəli istifadə üçün hüquqi mexanizm yaradılacaq



“Enerji səmərəliliyi ilə bağlı tədbirlər çərçivəsində hazırlanmış “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanun layihəsi hazırda baxılmaqdadır”.

Bu sözləri Energetika naziri Pərviz Şahbazov deyib.

Nazir vurğulayıb ki, qanunun qəbulu müasir enerji səmərəliliyi alətlərinin tətbiqi ilə enerjidən səmərəli istifadə üçün hüquqi mexanizm yaradacaq. Bununla yanaşı, ixtisaslaşmış beynəlxalq təşkilatların dəstəyi ilə “Enerji Effektivliyi üzrə Milli Fəaliyyət Planı” hazırlanıb. Plan energetika sektoru da daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələri və ev təsərrüfatlarında səmərəliliyin təmin edilməsinə yönəlib: “Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası”nın hazırlanması da davam etdirilir”.

# Президент Ильхам Алиев дал видеоинтервью российскому информационному агентству ТАСС

19 октября Президент Азербайджанской Республики Ильхам Алиев дал видеоинтервью российскому информационному агентству ТАСС. Представляем это интервью.

**- Добрый день. Мы сегодня находимся в Баку и встречаемся с Президентом Азербайджана Ильхамом Алиевым. Я, Юлия Шарифулина, от имени ТАСС задам господину Президенту несколько вопросов по ситуации вокруг Нагорного Карабаха.**

**- Здравствуйте, господин Президент.**

- Здравствуйте.

**- Спасибо, что согласились нас принять. Понятно, что за последнее время Вы дали уже не одно интервью средствам массовой информации. Но ситуация меняется стремительно, мы наблюдаем это буквально каждый день. Мы бы хотели, наверное, остановиться больше на каких-то базовых вопросах, которые, возможно, еще не так подвластны времени и которые помогут нашей аудитории лучше понять позицию Вашей страны. Мы все были свидетелями 11-часового переговорного марафона в Москве. Как Вы считаете, возможно ли возвращение к полному выполнению достигнутого перемирия или оно уже окончательно провалилось?**

- Мы привержены тем обязательствам, которые берем на себя в рамках контактов с нашими партнерами. И с самого начала, и в процессе переговоров по урегулированию конфликта мы всегда опирались на международное право, на нашу приверженность решению конфликта мирным путем. И в том числе те обязательства, которые Азербайджан на себя взял после переговоров в Москве, мы стремились и собирались выполнять. Но к сожалению, Армения грубо нарушила режим перемирия - не прошло и 24 часа, как был атакован город Гянджа, спящий город Гянджа ночью, причем целенаправленно, удар был нанесен по жилым кварталам. После первой атаки, а их было две, было очень много погибших и раненых. То есть, Армения демонстративно нарушила перемирие. Тем самым она проявила неуважение к посредникам, неуважение к своим обязательствам, которые взяла после таких длительных переговоров в Москве. До того, после того, как были согласованы условия прекращения огня с целью обмена телами погибших, пленных и заложников, Армения нарушала режим прекращения огня и на поле боя. Но, видимо, этого им показалось недостаточно, и они атаковали город Гянджа. Кстати, недавно, два дня назад они сделали тоже самое, опять же ночью. Это очень подлое преступление. Это - международный терроризм. То, что мировое сообщество единогласно осудило это кровавое преступление, говорит, что просто так это им с рук не сойдет. И генеральный секретарь ООН, и Евросоюз, и многие страны в национальном качестве осудили этот акт международного терроризма.

То, что ситуация до сих пор в горячей фазе, не наша вина. Я неоднократно говорил, что Азербайджан привержен принципам урегулирования. Они были выработаны многолетним переговорным процессом. В рамках моих публичных высказываний и контактов с представителями прессы в эти дни я так же подтверждал, что мы готовы хоть завтра приостановить военные действия, если Армения будет вести себя конструктивно на переговорном треке. Но заявления, которые мы слышим из Еревана, полностью противоречат базовым принципам, которые были выработаны Минской группой ОБСЕ. Буквально недавно опять армянское руководство выступило с очень опасными заявлениями, фактически отвергающими базовые принципы. В принципе вся деятельность нового армянского руководства была направлена на то, чтобы сорвать переговорный процесс. Не подорвать, а именно сорвать. Я уже говорил об их многочисленных заявлениях, провокационных действиях и атаках на мирное население Азербайджана. Поэтому если армянская сторона наконец осознает, что путь военных провокаций ведет их к катастрофе, мы готовы вновь приостановить военные действия и решить вопрос за столом переговоров.

**- Согласна ли Ваша страна на необходимость срочной встречи по военной линии, о чем говорит Россия. То есть, если да, в каком формате, при участии каких сторон эта встреча могла бы пройти?**

-Вы знаете, в данном случае первостепенной является политическая воля руководства Армении и Азербайджана. С нашей стороны это есть. Я сегодня еще раз подтверждаю нашу позицию. Причем подтверждаю ее тогда, когда сегодня объявлено об освобождении еще 13 населенных пунктов на оккупированных территориях, тогда, когда армянская армия по существу терпит фиаско, когда Азербайджан демонстрирует свое преимущество на поле боя. Но, тем не менее, не желая продолжения кровопролития и желая сохранить жизни людей, мы готовы к тому, чтобы политическим путем этот вопрос решить.

Что касается контактов между военными, в базовых принципах эти моменты четко определены, и мы привержены базовым принципам, о которых я уже говорил. Думаю, повторяться нет смысла, это - возврат территорий, оккупированных армянской стороной, переговоры по будущему Нагорного Карабаха, возврат беженцев и вынужденных переселенцев в места изначального проживания, в том числе в Нагорный Карабах, в Шушу. Все это написано в базовых принципах, и армянская сторона на разных этапах давала согласие на все это. Поэтому вопрос, к которому вы сейчас обратились, он в базовых принципах в конце согласования, тогда, когда уже будут урегулированы все вопросы, связанные с деоккупацией, тогда предполагалось присутствие иностранных миротворческих сил. Но поскольку не были согласованы основные вопросы, требующие урегулирования, то к этому вопросу стороны так и не подошли. Поэтому не было четкого понимания, из кого эти силы будут состоять, какие международные структуры будут там представлены, какие страны там будут представлены. Поэтому это все не обсуждалось. Но было ясно одно, что состав миротворческих сил должен быть согласован Азербайджаном и Арменией, а также места дислокации этих сил. Это тоже не было определено. Поэтому сегодня, когда линии соприкосновения нет, когда статус-кво нарушен и нарушили его мы и делали это в рамках заявлений глав государств России, США и Франции, неоднократных заявлений глав государств о том, что статус-кво неприемлем, мы эти заявления слышали, но мы не видели имплементации. Поэтому мы сами его имплементировали. То есть, нет статус-кво, нет линии соприкосновения. И как технически могут быть размещены какие-то военные наблюдатели и где они могут размещены? Ведь каждый день идет изменение ситуации на боле битвы. И что, какие-то иностранные наблюдатели придут туда и где они встанут - на каких-то горах, в долинах, на мостах. То есть, это все требует очень детальной проработки.

**- Но если того все-таки потребует ситуация, согласится ли Ваша страна на ввод российских военных наблюдателей? И если не российских, какие бы страны еще могли бы поучаствовать в этой миссии, и против участия каких стран Вы бы возражали категорически?**

-Вы знаете, Россия, так же как США и Франция, являются сопредседателем Минской группы ОБСЕ, и в рамках этого мандата страны имеют очень тесное взаимодействие между собой. Я вот в период горячей фазы конфликта сейчас наблюдаю и в западной прессе, и в российской прессе, что, пожалуй, вопрос Нагорного Карабаха – это единственный вопрос, где нет разногласий между этими странами. И наверное, это на самом деле так. Потому что, куда бы мы ни посмотрели, везде санкции, конфронтации, претензии и так далее, взаимные причем. Поэтому, конечно же, я уверен, что в рамках формата сопредседательства между этими странами этот вопрос должен быть согласован, и после того, как он будет согласован, он должен быть представлен сторонам. То есть, это все предполагалось и в базовых принципах. Потому что не мы же будем определять, кто будут миротворцы или, как их сейчас хотят назвать, наблюдатели. Это будет предложение со стороны сопредседателей Минской группы ОБСЕ. А Азербайджан и Армения со своей стороны могут либо заветировать ту или иную страну, либо как бы согласиться. Поэтому я не думаю, что в одностороннем порядке это бы отвечало духу сотрудничества между тремя странами-сопредседателями определять какой-то воинский контингент. И самое главное - куда? Вот в чем вопрос. Дело не в том, что согласится Азербайджан или не согласится. Нам надо знать мандат: кто является поручителем, функции, место расположения, деятельность. Они что будут стоять на горах или в чистом поле и наблюдать кто куда стреляет? Это опасно, во-первых. Во-вторых, в случае, скажем, который нам преподносится, как это для того, чтобы наблюдать кто нарушил перемирие. Но знаете, даже если будет определено, кто нарушил перемирие, ну и дальше что? Что этих людей будут привлекать к ответственности? Будут какие-то уголовные дела?

Поэтому нужно в первую очередь определить порядок имплементации базовых принципов. Армянская сторона должна четко в лице премьер-министра подтвердить приверженность. А армянская сторона в лице премьер-министра говорит обо всем, только не об этом. Армянский премьер только говорил о самоопределении. То есть, если он не принимает, а своими заявлениями, которые он делал до того, говоря, что Карабах – это Армения и точка, и прочими контрпродуктивными заявлениями, он по существу сорвал переговорный процесс, то что нам предлагается? Опять вернуться к статус-кво, который был 30 лет и ни к чему не привел? Если мы увидим с армянской стороны, да они скажут: мы признаем территориальную целостность Азербайджана, второе, мы привержены базовым принципам, третье, мы согласны на вывод войск с оккупированных территорий, да, тогда, вот тогда давайте будем обсуждать вопрос наблюдателей. Я думаю, что быстро это может быть согласовано.

**-Если говорить о последовательности в принципиальном плане, согласны ли в Азербайджане начать урегулирование с поэтапной передачей 7 районов Азербайджану, но при сохранении Лачинского коридора за Арменией до определения окончательного статуса Карабаха?**

- Вы знаете, это же все в базовых принципах написано, и мы это приняли. И наша позиция всегда была очень конструктивной, и мы всегда говорили, что да, мы исходим из понимания того, что должны быть контакты между людьми, и Лачинский коридор - часть базовых принципов. Одновременно с этим ведь в базовых принципах написано о том, что открываются все коммуникации, и не только Лачинский коридор, а также открываются коммуникации между основной частью Азербайджана и Нахчываном, и армянская сторона должна была предоставить гарантии безопасности этого коридора. Открываются коммуникации на границе между Арменией и Азербайджаном. Также предполагалось, что Армения будет иметь беспрепятственный наземный доступ на территорию Российской Федерации, которого она сейчас не лишена, но через Азербайджан это делать намного удобнее и это не зависит от погодных условий, снегопада в горах и так далее. То есть, все это - часть компромиссного пакета, который и предполагал деоккупацию азербайджанских территорий, возврат азербайджанских беженцев во все земли, из которых они были изгнаны, не только в 7 районов, но и на территорию Нагорного Карабаха, - а до начала конфликта 25 процентов всего проживавшего там населения составляли азербайджанцы, - и конечно же, беспрепятственный доступ между Нагорным Карабахом и Арменией через Лачинский коридор. Мы еще раз подтверждаем эту позицию.

**- Господин Президент, не секрет, что Россия выразила обеспокоенность сообщениями о переброске боевиков в зону конфликта, с Ближнего Востока, в частности, из Сирии и Ливии. Как Вы можете это прокомментировать?**

- Я уже неоднократно на эту тему говорил публично о том, что такие беспокойства безосновательны. До сих пор нам не предоставлено никаких фактов ни с одной стороны. Потому что такие заявления делались не только со стороны России, но и со стороны Франции, и мы просили предоставить нам конкретные факты, конкретные доказательства того, что здесь нами приглашены какие-то террористы. До сих пор кроме слов никаких фактов нам предоставлено не было. Ну, хорошо, если такие факты есть, если это заявляется, почему же нам это не предоставляют. Ссылаются на какие-то газетные публикации. Знаете, сейчас все что хочешь можно написать. Поэтому это не совсем тот подход, который мы принимаем и приветствует, это первое.

Второе, я уже говорил, что Азербайджанская армия показала свою боеспособность, как на поле битвы, так и в плане технического вооружения. Нами практически уничтожен основной военно-технический потенциал Армении, который был расположен на оккупированных территориях. Я эти цифры приводил.

Ни одна страна с нашей стороны в конфликт не вовлечена, никаких террористов с нашей стороны нет.

**- Ильхам Гейдарович, за 26 лет мир все-таки не понял, как бы могла выглядеть окончательная договоренность между Арменией и Азербайджаном по Карабаху. Как это видите Вы, и все же возможны ли какие-то уступки ради мира?**

- Вы знаете, я опять же хочу сказать, что сопредседатели Минской группы хотя и не достигли никакого результата и за это справедливо подвергаются критике азербайджанской общественности, но я должен сказать, как человек, который последние 17 лет занимаюсь этим вопросом практически в каждодневном режиме, и огромная часть моего времени за эти годы была именно посвящена тому, как найти пути решения, должен сказать, что Минская группа старалась, она предлагала, она не бездействовала. Поэтому я отвергаю такие вот огульные обвинения, это не так. И в период моих контактов с предыдущим руководством Армении, с предыдущими двумя президентами мы сделали очень большие шаги вперед. Мы продвинулись по согласованию вопросов, которые казались вообще несогласуемыми, и это все было на основе желания достичь результата, желания компромиссным путем прийти к урегулированию. Другое дело, что на определенном этапе, когда мы слишком близко подошли к урегулированию, армянская сторона сделала шаг назад. Это тоже факт, хотя они всегда пытались обвинять нас в этом. Но в последний момент они отказались от возврата Кяльбаджара и Лачина. Потому что другие пять районов - они были давно согласованы, и мы уже обсуждали вопрос, когда будут возвращены Кяльбаджар с Лачином. То есть, мы обсуждали сроки. В том, что этот вопрос решен, не было сомнений ни у меня, ни у Минской группы. Я думаю бывшие сопредседатели Минской группы, которые тогда участвовали в этом, могут это подтвердить. Но потом армянская сторона сделала шаг назад, и вопрос передачи Кяльбаджара с Лачином повис в воздухе.

Поэтому, возвращаясь опять же к тому, о чем вы спросили, Минская группа создала основу для урегулирования. Это - деоккупация, это возврат беженцев, открытие коммуникаций, совместное проживание азербайджанской и армянской общин, что полностью соответствует нормам и международного права, и вообще человеческой морали.

Поэтому еще раз хочу сказать, что вся вина за вот то, что сейчас происходит, лежит лично на Пашиняне. Это человек, который не только оказался случайно во власти, но принес очень много страданий и горя азербайджанскому народу и армянскому народу. Это - выкормыш Сороса. Это человек, который в предыдущей своей жизни всегда выступал против сотрудничества Армении с Россией. Его партия называлась «Выход» - выход из ОДКБ, выход из ЕврАзЭС. Команда Пашиняна вся практически состоит из представителей неправительственных организаций, финансируемых Западом, - Фонд Сороса, Amnesty International, Transparency, Human Rights Watch, Freedom House. Люди, которые сегодня представляют Армению во власти, в свое время забрасывали российское посольство яйцами и выходили с лозунгами «Прочь российские оккупанты». Поэтому я, честно говоря, удивлен тому, что определенная часть российского политического истеблишмента поддерживает этот преступный террористический режим. И то, что они два раза ударили по спящему городу Гянджа баллистическими ракетами, причем сознательно в жилые массивы, чтобы убить как можно больше людей, это кровавое преступление. Они за это преступление отвечают сейчас на поле битвы, и если не одумаются, то конец их будет очень плачевный. Поэтому, возвращаясь к вашему вопросу, мы привержены базовым принципам, мы считаем, что урегулирование возможно, но для этого армянская сторона сейчас, пока еще не поздно, пока она еще только на коленях стоит перед нами, она еще имеет время для того, чтобы их принять и перевести конфликт из горячей фазы в стадию политического урегулирования.

**-Ну и в завершение логично будет спросить, готовы Вы ли приехать в Москву для встречи со своим визави из Армении при посредничестве Российской Федерации?**

-Вы знаете, я в Москве бывал очень много раз. В данном случае я приглашения такого не получал, поэтому этот вопрос не ко мне. И много раз лично Президент Владимир Владимирович Путин и до него Дмитрий Анатольевич Медведев проводили трехсторонние встречи между руководителями Армении и Азербайджана. Но после того, как власть в Армении перешла в руки условного Сороса, такие контакты прекратились. Россия всегда играла важную роль в урегулировании конфликта, и я об этом говорил, для этого есть объективные причины, как исторического характера, так и географического характера. И также причины того, что Россия на протяжении многих десятилетий в нашем регионе активно действует и существует высокий уровень взаимодействия. Поэтому мы готовы для любых контактов, и, кстати, когда поступило предложение организовать встречу министров иностранных дел, мы сразу согласились. Ведь это тоже говорит о нашей позиции. Ведь тогда Азербайджанская армия уже успешно освободила часть стратегических территорий. И это уже было где-то больше десяти дней, как длился конфликт, и уже практически было ясно всем, кто на что способен. И предположить дальнейший ход боевых действий, наверное, было не очень трудно. Но несмотря на это, мы не стали тянуть время, или же отказываться, мы сказали: да, мы готовы. И я тогда сказал, когда разговаривал с Президентом России, что я посылаю министра. Он, кстати, был в это время в Женеве, министр иностранных дел, вел переговоры с Минской группой. В фазе горячего обострения наш министр был в Женеве, а армянский министр так туда и не доехал, хотя он тоже должен был там быть. Поэтому мы готовы всегда встретиться в Москве и в любом другом месте для того, чтобы положить конец противостоянию, но и найти пути урегулирования. Мы тоже хотим мира, но в отличие от Армении, мы также хотим территории, которые по праву нам принадлежат.

**- Господин Президент, спасибо Вам за Ваши ответы.**

**- Вам спасибо.**

# AZƏRBAYCAN: ƏN YENİ TARİXİN ŞANLI SƏHİFƏLƏRİ

**Müstəqil Azərbaycan Respublikasının rəşadətli ordusu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə öz ərazi bütövlüyünün bərpası istiqamətində, sentyabrın 27-si səhər saatlarında Azərbaycan Respublikasının ərazisinə Ermənistan tərəfindən edilən xain təxribatlara cavab olaraq uğurlu əks-hücum əməliyyatlarına başlamışdır. Bu Vətən müharibəsində Azərbaycan xalqı böyük əzm nümayiş etdirərək, Ali Baş Komandanın ətrafında sıx birləşmiş, öz ərazi bütövlüyünün bərpası üçün suveren sərhədləri daxilində aparılan hərbi əməliyyatları birmənalı olaraq dəstəkləmişdir. Bu gün Dağlıq Qarabağ və onun ətraf ərazilərində gedən döyüşlər Azərbaycanın beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən tanınan sərhədləri daxilində gedir.**



Ermənistan Respublikası tərəfindən törədilən təxribatlar təsadüfi xarakter daşımır. 30 ilə yaxın müddətdə davam edən danışıqlar prosesi və eləcə də 1994-cü ildə imzalanan atəşkəsdən sonra işğalçı dövlət zaman-zaman müxtəlif təxribatlara, hərbi avantüralara əl atmışdır. Atəşkəs imzalanandan sonrakı dövrdə baş verən ilk şiddətli döyüşlər 2016-cı ilin Aprel döyüşləri olmuşdur. Aprel döyüşləri zamanı Azərbaycan ordusu tərəfindən düşmənə layiqli cavab verilmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, rayonun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi düşməndən azad olunmuşdur. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin tam qələbəsi ilə başa çatmış, aprelin 5-də hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. İşğaldan azad olunmuş Cocuq Mərcanlı kəndi "Böyük qayıdışın başlanğıcı" kimi dəyərləndirilmişdir və Prezident İlham Əliyevin tapşırığı ilə qısa müddət ərzində - 8 aya bərpa edilmiş, doğma yurdundan didərgin düşmüş Cocuq Mərcanlı sakinləri öz doğma ata-baba yurdlarına geri qaytarılmışdır.

Aprel döyüşlərindən sonrakı dövrdə rəşadətli Azərbaycan ordusu 2018-ci ilin 20-27 may tarixlərində Naxçıvan Muxtar Respublikası ərazisində Günnüt əməliyyatı keçirmiş, öz qələbələri sırasına növbəti zəfərini əlavə etmişdir. Günnüt əməliyyatı nəticəsində 11 min hektar ərazi, o cümlədən Şərur rayonunun Günnüt kəndi, bir neçə yüksəklik və dağ azad olunmuşdur. Əməliyyat nəticəsində strateji əhəmiyyət daşıyan İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçmişdir.

**2018-ci ildə "məxməri inqilab" nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın da danışıqlar prosesində konstruktiv mövqe sərgiləməməsi, danışıqlarda 3-cü tərəf kimi qondarma Dağlıq Qarabağ seperatçı rejiminin də iştirakının zəruri olması kimi ritorik bəyanatı və eləcə də onun "Qarabağ Ermənistandır və nöqtə" deyə heç bir reallığa sığmayan açıqlaması mahiyyət etibarilə danışıqlara böyük zərbə vurdu.**

Ermənistan müdafiə nazirinin 2019-cu ilin martında ABŞ-da erməni icması ilə görüşündəki açıqlaması isə münaqişənin sülh yolu ilə həllinə növbəti ciddi zərbəsini vurmuşdur: "Ermənistanın müdafiə naziri kimi deyirəm ki, mən, "ərazi qarşılığında sülh" formulunu dəyişdirmişəm. Artıq biz bunun tam əksini edəcəyik, yəni "yeni ərazilər üçün yeni müharibə". Heç bir ərazi güzəşti olmayacaq. Qarşılıqlı kompromislər isə mümkündür. Biz, hərbi əməliyyatları düşmənin ərazisinə transfer edə biləcək qoşun bölmələrimizin sayını artıracağıq", - Tonoyan sərsəm bəyanatla çıxış edib. Bütün bunlar BMT TŞ-nin münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamənin, ATƏT-in Madrid prinsiplərinin aşkar şəkildə Ermənistan tərəfindən yerə vurulması faktı kimi qiymətləndirilir. Lakin beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatlar Ermənistanın müharibə ritorikasına səssiz qalmağı seçir. Beləcə düşmən artıq zəbt etdiyi torpaqlarla kifayətlənmərək, hətta qonşu ölkələrin torpaqları hesabına dənizdən-dənizə "Böyük Ermənistan" yaradacağına özünü inandırır. Beynəlxalq səviyyədə Ermənistana lazımi təzyiqlər olmadığından işğalçının daha da azğınlaşıb, hətta yeni ərazilərə iddia səsləndirməsi onun regiona, sülhə və sabitliyə nə dərəcədə ciddi təhdid olduğunu sübut edir.

**Bu ilin may ayında Qarabağımızın dilbər guşəsi olan Şuşa şəhərində işğal olunmuş ərazilərimiz üzərində yaradılan qondarma Dağlıq Qarabağ Respublikasının qondarma prezidentinin andiçmə mərasimi Azərbaycan ictimaiyyətində geniş rezonans doğurmuşdur. Bu təxribat, eyni zamanda, Azərbaycan xalqına açıq təhqir idi.**

Öz alçaq və riyakar təxribatlarının davamı olaraq Ermənistan dövləti cari ilin iyul ayının 12-də münaqişə zonasına daxil olmayan Azərbaycan-Ermənistan dövlət sərhəddinin Tovuz istiqamətində genişmiqyaslı hücum məqsədli hərbi təxribata əl atdı. Bu dəfə də düşmənə layiqli cavab verildi və o, geri oturduldu. Tovuz istiqamətindəki hərbi təxribat heç də təsadüfi xarakter daşımırdı. Azərbaycanı Türkiyə və Avropa ilə birləşdirən regionun irimiqyaslı layihələri - Bakı-Tbilisi- Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti məhz Tovuz rayonu ərazisindən keçir. Azərbaycanın strateji layihələri üzərində nəzarət əldə etmək istəyən bədxah qonşumuz yenə də məğlub olaraq, geri çəkilməyə vadar edildi və bir santimetr torpaq belə əldə edə bilmədi.

Tovuz təxribatının törədilməsində ikinci səbəb isə Ermənistan hakimiyyətinin daxili auditoriyanın diqqətini dövlətin daxilində hökm sürən ciddi iqtisadi-siyasi böhrandan yayındırmaq məqsədi güdməsi idi. Koronavirus pandemiyası, Soros Fondunun sifarişli həbs əmrləri, Ermənistan Baş Nazirinin hakimiyyətə gələn zaman verdiyi bir-birindən boş vədlərin gerçəkləşməyəcəyi reallığının aydın dərk olunması daxildə gərginliyi artırırdı.

Konflikt zonasından xeyli uzaqda yerləşən Tovuz şəhərinə hücumun üçüncü məqsədi isə beynəlxalq ictimaiyyətin diqqətini Dağlıq Qarabağ münaqişəsi zonasından uzaqlaşdırmaq, yeni münaqişə ocağı yaratmaq idi. Azərbaycan ordusu və diplomatiyasının məharəti sayəsində düşmən heç bir məqsədinə çatmadı.

Riayakar və cinayətkar əməllər törətməkdə tərəddüd etməyən Ermənistanın 17 iyul tarixindən Rusiya tərəfindən intensiv silahlandırılması isə ictimaiyyətimizdə birmənalı qarşılanmadı. Prezident İlham Əliyev Rusiya Federasiyasının prezidenti ilə telefon danışığında bu narazılığı Vladimir Putinin diqqətinə çatdırdı, daha sonra verilən açıqlamalar isə Azərbaycan hökumətini qane etmədi.

Hadisələrin gedişatı, xüsusilə Ermənistanın intensiv silahlandırılması fonunda destruktiv nəticələrə səbəb olacaq proseslərə aparıb çıxaracağı məlum idi. Ermənistan müdafiə nazirinin yeni ərazilər üçün yeni müharibə bəyanatının mahiyyətinə uyğun olaraq sentyabrın 27-si səhər saatlarında cəbhədə Ermənistan dövlətinin növbəti təxribata əl atması Azərbaycan ordusunun uğurlu-əks hücum əməliyyatlarına start verməsi ilə nəticələndi. Cəzasız qalmış düşmənə artıq Azərbaycan ordusu tərəfindən döyüş meydanında ibrətlik dərs verilir, uzun illər işğal altında qalmış əzəli torpaqlarımız işğaldan azad edilir. Müstəqil Azərbaycan Respublikasının ən yeni tarixinin yazıldığı bu günlərdə müzəffər ordumuz artıq Cəbrayıl, Füzuli və Zəngilan şəhərlərini və Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkarı, Şərifan, Muğanlı kəndlərini işğaldan azad etmişdir. Rəşadətli Azərbaycan ordusunun azadetmə əməliyyatı bu gün də uğurla davam edir. Qızıl hərflərlə yazılan bu şanlı tariximiz dövlətçilik tariximizdə milsilsiz səhifədir.

Bu günlərdə beynəlxalq ictimaiyyətin Dağlıq Qarabağda gərginləşən vəziyyət barədə narahatlıq ifadələri səsləndirməsi məqbuldur. Döyüşlərin başlandığı ilk gündən qardaş Türkiyə Respublikası açıq və net dəstəyini ifadə etmişdir. Dövlət və hökumət rəsmiləri səviyyəsində edilən açıqlamalarda "Bütün imkanlarımızla Azərbaycanın yanındayıq" ifadələri bir daha bütün dünyaya "bir millət iki dövlət" anlayışını təkcə sözdə deyil, həm də əməldə isbat etmişdir. Münaqişənin nizamlanması məqsədilə yaradılan və 30 ilə yaxındır fəaliyyət göstərən ATƏT-in Minsk qrupu həmsədrlərinin isə münaqişənin müharibə variantının olmadığını və tərəflərə tezliklə danışıqlar masasına əyləşmələri barəsində çağırışları əsasında həmsədr statusundakı 3 ölkədən biri olan Fransanın mövqeyi anlaşılmazlığı ilə diqqət çəkdi. Avropa Birliyinin Brüssel sammitinə gəlişi zamanı Fransa Prezidenti Emmanuel Makronun Qarabağ konflikti barəsində həqiqətə uyğun olmayan açıqlaması və mandatı olduğu qurumun həmsədri kimi bitərəfliyini pozması qəbuledilməzdir: "İndi biz cihadçı qruplardan olan suriyalı döyüşçülərin Dağlıq Qarabağa çatması üçün Qaziantepdən (Türkiyənin cənub-şərqi) keçdiklərini göstərən məlumatlara sahibik, bu, vəziyyəti dəyişdirən çox ciddi yeni bir faktdır". Fransa şimali Qarabağın yenidən fəth edilməsi ilə bağlı Azərbaycandakı hər cür əngəli aradan qaldıran, Türkiyənin son saatlarda verdiyi savaş açıqlamalarından son dərəcə narahatdır. O, ayrıca İrəvana dəstəyini də dilə gətirdi: "Ermənistana və ermənilərə deyirəm, Fransa öz rolunu oynayacaq." Bu kimi açıqlamalar Fransanın Minsk qrupu həmsədrliyindən çıxarılmasına gətirib çıxara bilər. Türkiyənin Aralıq dənizində kəşfiyyat-qazma işlərini aparması məsələsində Fransa ilə yaranan gərginlikdən qaynaqlanan bu tipli açıqlama sonrasında Fransa prezidentinin Azərbaycan prezidenti ilə telefon görüşməsində dərhal atəşkəsə çağırışla nəhayətləndi. Minsk üçlüsü - ABŞ, Fransa və Rusiya qurumdakı mandatlarına müvafiq olaraq, münaqişənin siyasi və diplomatik kanallarla, sülh yolu ilə həlli üçün bitərəf qalmalı, konstruktiv mövqe sərgiləməlidirlər. Lakin Fransa prezidentinin tərəf tutması, atəşkəs çağırışı, döyüşlər başlanan tarixdən Prezident İlham Əliyevə 3 dəfə zəng etməsi diqqət çəkmişdir. Ermənistan tərəfini açıq dəstəkləyən Fransa prezidentinin işğal olunmuş ərazilərimizin geri qaytarılmasındakı səyləri artıq sual doğurur. Lakin Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zacharie Gross 18 oktyabrda yaydığı məlumatda gərginlik dövrünün artıq bitdiyini, əlaqələrimizdə yeni səhifə açıldığını bildirmişdir.

**Cəbhədə hər gün böyük uğurlara imza atan şanlı ordumuzun qarşısında tab gətirməyən Ermənistan tərəfi Livandan, Yaxın Şərqdən terrorçu qruplaşmaları Qarabağ ərazisinə gətirib döyüşlərə cəlb edir. Bundan əlavə, gah Türkiyənin döyüşlərdə iştirak etdiyini, gah da Türkiyənin yardımı ilə Suriyadan, İraqdan muzdluların Azərbaycana gətirildiyini və Azərbaycan tərəfində döyüşdüyü barədə əsassız bəyanatlar, açıqlamalar yayır.** Azərbaycanı dayandırmağın mümkün olmadığını görən mənfur düşmən Ermənistan ərazisindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində yerləşən yaşayış məntəqələrinə ağır artilleriya ilə iri çaplı silahlardan istifadə edərək atəş zərbələri endirir. Bununla da Ermənistan üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatını münaqişəyə cəlb etmək və münaqişənin miqyasını böyütmək məqsədi güdür. Bu gün aparılan hərbi əməliyyatlar ölkəmizin beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində gedir və ərazi bütövlüyümüzün bərpasını təmin edir. Azərbaycan tərəfi bəyan etmişdir ki, beynəlxalq hüquqa müvafiq olaraq özünü müdafiə haqqından istifadə edərək, hərbi atəş nöqtələri dəqiqləşdirilib legitim hərbi hədəf kimi vurulacaq.

Rusiya rəhbərliyinin ölən, yaralanan və əsir düşənlərin qarşılıqlı dəyişdirilməsi məqsədilə humanitar əsaslarla müvəqqəti atəşkəs çağırışına əsasən 9-10 oktyabr tarixlərində Moskva şəhərində görüş keçirildi və tərəflər arasında atəşkəs imzalandı. Azərbaycan dövləti bəşəri humanizminin əsas idealı olan insani dəyərlərə hər zaman üstünlük verdiyini bir daha sübut etdi. Lakin atəşkəsin imzalanmasından sonra iki dəfə Erməni hərbi-siyasi rəhbərliyinin göstərişi ilə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə gecə saatlarında raket hücumuna məruz qaldı. Böyük dağıntılara, xeyli sayda insan ölümünə və yaralanmasına səbəb olan bu xain hücum Ermənistanın zəif və acizliyinin bariz nümunəsidir. Döyüşlər başlanandan döyüş meydanında ordumuza güc gələ bilməyən düşmən öz acısını mülki əhaliyə atəş açmaqla dindirir. Cenevrə Konvensiyasının "Müharibə zamanı mülki şəxslərin müdafiəsi" adlı 4-cü bəndini kobudcasına pozan Ermənistan rəhbərliyinin törətdiyi bu çirkin, amansız, qanlı əməllər ilə ölkəmizdə olan diplomatik korpus, səfirlik nümayəndələri, hərbi attaşelər yerindəcə tanış olmuş və məlumatları sənədləşdirərək öz ölkələrinə təqdim etmişlər. Həmçinin xarici nüfuzlu kütləvi informasiya vasitələri Gəncə terraktı barədə ətraflı şəkildə reportajlar hazırlamış və dünyaya təqdim etmişlər. Dünyaya haqq səsimizin çatdırılmasında Azərbaycan gənclərinin sosial şəbəkələrdə aktiv surətdə başlatdığı və həyata keçirdiyi fəaliyyət də diqqətəlayiqdir.

**Heç bir müstəqillik, azadlıq havayı başa gəlmir. Azərbaycan xalqı öz ərazi bütövlüyünü, müstəqilliyini təmin etmək üçün öz qanı və canıyla vuruşub, onu əldə etmişdir. Bu günlərdə şanlı ordumuz xalqımızın müstəqillik tarixinin qızıl səhifələrini yazır. Müstəqilliyimizin 29-cu ildönümündə cərəyan edən bu hadisələrdən sonra Azərbaycan dövləti və vətəndaşları müstəqilliyin 30-cu ildönümünü əzəli və əbədi Qarabağ torpaqlarında qeyd edəcək. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan işğaldan azadetmə əməliyyatı tarix boyu heç vaxt unudulmayacaq və gələcək nəsillər zəfər tarixinin bu səhifələrini oxuduqca qürur duyacaqlar. Qarabağ Azərbaycandır!**

**Azad Quliyev,**
**iqtisadçı ekspert**

# Ətrin gəlir, XARI-BÜLBÜL!

Kür və Araz çayları aralığında yerləşən, əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağ dünya mədəniyyətinin nadir incilərindəndir. Qarabağ mədəniyyətimizin, musiqimizin beşiyidir. Əfsuslar olsun ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində zəngin mədəni sərvətlərimizi də itirdik. Elmi sübutlara əsaslanaraq demək olar ki, ilk insan məskənlərindən biri də olan Azıx mağarası da məhz Qarabağdadır. Cavanşir sülaləsindən olan Pənahəli xan Qarabağ xanlığının əsasını qoymuşdu. Qarabağ xanlığı Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşir. Xanlığın sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və Dağlıq Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə Mehri, Tatev və Sisiana qədər uzanırdı. Xanlıq Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd olub.

Mən Qarabağı görməsəm də, onun adı çəkiləndə ürəyimdən sanki bir sızıltı, bir ağrı keçir. O gözəl yerlərə indi kimlərin ayaq basdığını, o torpağın dəyərini bilmədikləri halda mənimsədiklərini fikirləşəndə nifrət məni boğur. Tarixin ayrı-ayrı dönəmlərində ölkəmiz həmişə yadellilərin hücumlarına məruz qalıb. Vətən ancaq üzərində gəzdiyimiz torpaq parçası deyil. Ona görə də bu dəfə babalarımızın yadigarını geri alacağıq. Baxmayaraq ki, yolunda neçə-neçə oğullar qurban gedir, amma yenə də əsirlikdədir Qarabağım...

**O gün yaxındadır, o günün gəlişinə inanmaq lazımdır. Yalnız inam bizi irəli aparar.**

Tariximizin səhifələrinə qızıl hərflərlə yazılan 2016-cı ilin aprel döyüşləri bir daha sübut etmişdir ki, qələbə sevincimiz heç də uzaqda deyil. Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Prezident İlham Əliyev tərəfindən imzalanan Sərəncam da buna ümid verir. Orada uçuq-sökük evlərin qalıqları, erməni vəhşiliyini özündə əks etdirən mənzərə canlanırdı. İndi isə Cocuq Mərcanlı müasir qəsəbələrdən heç nə ilə fərqlənmir, bu da mənfur qonşumuzun gözünə ox kimi batır.

**Böyük Qayıdışın başlanğıcı oldu Cocuq Mərcanlı!**

2016-cı ilin aprel döyüşləri və 2020-ci ilin Tovuz döyüşləri zamanı bir çox atəşkəs pozuntusu müşahidə olunmuşdur. Yenidən Ermənistan Silahlı Qüvvələri tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı



və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri 27 sentyabr 2020-ci il saat 06:00 radələrində iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğuları vasitəsilə intensiv atəşə tutulub. Bunun nəticəsində Azərbaycanın mülki əhalisi arasında həlak olan və yaralananlar da oldu. İnfrastruktur obyektlərinə ciddi ziyan dəydi. Gəncənin bugünkü vəziyyəti mənə Xocalı soyqırımını xatırladır. İtirilmiş torpaqlarımız uğrunda çox təəssüf ki, şəhid olan, ayağını, gözünü, qolunu itirən igidlərimiz də var. **Şərlə xeyir qardaş olduğu kimi, bir yandan şəhidlərimiz üçün sızlayırıq, bir yandan da azad olunmuş torpaqlarımız üçün sevinirik.**

Müstəqil Azərbaycan ordusu 30 ildir ki, işğal altında olan yerlərimizin bir hissəsində bayrağımızı səmalara qaldırır, böyük strateji əhəmiyyətə malik olan yüksəkliklərimizi geri alır, düşmənin milyonlarla ölçülə bilən zirehli texnikasını, döyüş silahını və sursatını sıradan çıxarır. Bu prosesin həcmi getdikcə genişlənir, coğrafiyası daha böyük miqyas alır və almaqdadır.

**"Torpaq uğrunda ölən varsa, Vətəndir!"**, – deyib öz torpaqlarından ana qucağında didərgin düşmüş övladlar bu gün tanklarla düşmənin üzərinə qəhrəmancasına hücum edir, bizi neçə illərdir ürəyimizdə qaysaq bağlayan arzularımıza çatdırır.

**P.S. Bu gün dünya səni anlamaq istəmir. Sənin hər qarışının bizlərə nə qədər doğma olduğunu duymur. ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ AZƏRBAYCAN olmadığını anlaya bilmir. Dünya birliyi hələ də anlamır ki, damarında AZƏRBAYCANLI qanı axan hər kəsin ürəyi QARABAĞLA döyünür.**

**L.A.Nəbiyeva**

## “Ermənistan Azərbaycanın mülki vətəndaşlarına qarşı müharibə cinayətlərini davam etdirir”



Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter” hesabında yazıb.

O qeyd edib ki, 20 oktyabrda 6 şəhərə 498 mərmi, 4 raket və 3 dron hücumu olub:

– Tərtər – 423 mərmi
– Ağdam – 49 mərmi
– Ağcabədi – 24 mərmi
– Goranboy – 2 mərmi
– Naftalan/Goranboy – “Smerch” raketləri.

Tərtərdə 2 mülki şəxs həlak olub, biri yaralanıb.

# İqtisadçı alim beynəlxalq təşkilatlara müraciət edib

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə bu günlərdə beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq İqtisadçılar İttifaqına, Rusiyanın, Bolqarıstanın görkəmli iqtisadçı alimlərinə müraciət ünvanlayaraq, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləməyə, qəsbkarı dayandırmağa və Azərbaycanın haqlı mübarizəsinə dəstək verməyə çağırmışdır.

Müraciətdə deyilir: “Mən Sizi Ermənistanın Azərbaycana qarşı yeritdiyi işğalçılıq və təcavüz siyasətini pisləməyə çağırıram. Ermənistan Respublikasının rəhbərliyi cəbhə xəttində və iki ölkə arasında sərhəddə yaranmış vəziyyətə görə tam və təkbaşına məsuliyyət daşıyır”.



## Azərbaycanın xarici ticarət dövriyyəsi 15,6 milyard dollar olub

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu ilin yanvar-avqust aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 15 milyard 667,8 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 8 milyard 977,3 milyon dollar, idxalın dəyəri 6 milyard 690,5 milyon dollar təşkil edib, nəticədə 2 milyard 286,8 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, 2019-cu ilin yanvar-avqust ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 29,8 faiz, real ifadədə 22,9 faiz, o cümlədən idxal 42,2 faiz, ixrac isə 8,9 faiz azalıb. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 86,3 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Ukrayna, ABŞ, Almaniya, Hindistan, İsrail, Gürcüstan, Yunanıstan, Xorvatiya, İspaniya, Birləşmiş Krallıq, Çexiya, İran, İsveçrə, Vyetnam, Tunis ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.




Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,7 faizi Rusiyanın, 14,7 faizi Türkiyənin, 13,3 faizi Çinin, 7,4 faizi ABŞ-ın, 5,3 faizi Almaniyanın, 4,2 faizi Ukraynanın, 4,1 faizi İtaliyanın, 3 faizi Birləşmiş Krallığın, 2,7 faizi İranın, 2 faizi Yaponiyanın, 1,8 faizi Koreya Respublikasının, 1,7 faizi Fransanın, 1,3 faizi Hindistanın, 1,1 faizi Belarusun, 1 faizi Polşanın, hər biri 0,9 faiz olmaqla Niderland və İsveçrənin, 0,8 faizi Qazaxıstanın, 15,1 faizi isə digər ölkələrin payına düşüb.

İdxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, nəqliyyat vasitələrinin, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, plastik kütlə və ondan hazırlanan məmulatların, toxuculuq materialları və məmulatlarının dəyəri üstünlük təşkil edib. Yanvar-avqust aylarında ixracın 86,6 faizini boru kəməri və elektrik ötürücü xətləri ilə nəql olunmuş, 8 faizini avtomobil, 3 faizini dəmir yolu, 1,8 faizini hava, 0,6 faizini dəniz nəqliyyatı ilə göndərilmiş məhsulların dəyəri təşkil edib.

## “SOCAR Gürcüstanda sosial layihələrə 100 milyon dollara yaxın sərmayə qoyub”

Bu sözləri Gürcüstanda səfərdə olan SOCAR-ın prezidenti Rövnəq Abdullayev jurnalistlərə açıqlamasında söyləyib.

Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda yaşayan soydaşlarımızın sosial problemlərinin həlli ilə bağlı SOCAR qarşısında xüsusi vəzifələr qoyub. SOCAR dövlətimizin başçısının tapşırıqlarını vaxtında və layiqincə yerinə yetirmək üçün xüsusi proqram hazırlayıb. Proqrama əsasən, qardaş və dost Gürcüstanda bir sıra sosialyönümlü layihələr həyata keçirilir. Gürcüstanda xeyli sayda yeni məktəblər tikilib, bəziləri əsaslı təmir olunub, mədəniyyət ocaqları, uşaq bağçaları, idman kompleksləri inşa olunaraq insanların istifadəsinə verilib. Bu işlər təkcə azərbaycanlılar yaşayan bölgələrdə deyil, Gürcüstanın bütün bölgələrində həyata keçirilib.

Proqram çərçivəsində işlər bundan sonra da uğurla davam etdiriləcək.

## “ACWA Power” və “Masdar” şirkətləri ilə imzalanacaq sənədlərin razılaşdırılması artıq yekunlaşır



“Bərpa olunan enerji sahəsində “Enerji alğı-satqı”, “İnvestisiya”, “Ötürücü Şəbəkəyə Qoşulma” və “Torpaq İcarə” müqavilələri hazırlanaraq investorlara təqdim edilib, “ACWA Power” və “Masdar” şirkətləri ilə imzalanacaq müvafiq sənədlərin razılaşdırılması artıq yekunlaşır”. Bu sözləri Energetika naziri Pərviz Şahbazov deyib. O qeyd edib ki, hər iki şirkətlə müvafiq müqavilələrin imzalanmasından sonra Abşeron, Xızı və Qaradağ rayonlarında ayrılmış ərazilərdə stansiyaların tikintisinə başlanacaq: “Külək elektrik stansiyasının inşa ediləcəyi ərazilərdə - Pirəkəşkül və Sitalçayda 6 ədəd külək ölçü-müşahidə stansiyası quraşdırılıb, layihənin ətraf mühitə və sosial təsirlərinin qiymətləndirilməsi aparılır. Günəş elektrik stansiyasının inşa olunacağı ərazidə də ətraf mühitə və sosial təsirlərin qiymətləndirilməsi ilə bağlı tədqiqatlar davam etdirilir. Bu elektrik stansiyalarının elektrik enerjisi şəbəkəsinə qoşulması üçün 3 yeni yarımstansiyanın investorlar tərəfindən tikilməsi planlaşdırılır.

Bərpa olunan enerji sahəsinin nəzərəçarpacaq inkişafı üçün investisiyaların cəlbi davamlı bir proses olmalıdır. Bu məqsədlə pilot layihələrdən əlavə özəl sektorun və xarici investorların iştirakı ilə yeni güclərin potensial ərazilərdə ikitərəfli müqavilələr və hərraclar vasitəsilə reallaşdırılması istiqamətində hazırlıq tədbirləri görülür”.

## İşğaldan azad edilən rayonlarımızda elektrik xətlərinin çəkilməsi ilə bağlı layihələndirmə işi yekunlaşıb

“Azərenerji” Açıq Səhmdar Cəmiyyəti (ASC) işğaldan azad olunan və ediləcək rayonlarımızda yeni 110 kilovoltluq sistem əhəmiyyətli yarımstansiyaların tikilməsi və quraşdırılması, ikidövrəli yüksəkgərginlikli 110 kilovoltluq elektrik xətlərinin çəkilməsi ilə bağlı layihələndirmə işini tamamlamaqdadır.

ASC-nin İctimaiyyətlə əlaqələr və media mərkəzindən bildirilib ki, ilkin olaraq Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının hər birində 110 kilovoltluq sistem əhəmiyyətli 4 yarımstansiyanın tikilməsi və onların arasında 110 kilovoltluq elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulub.

Paralel olaraq “Azərişıq” ASC də 35 kilovoltluq yarımstansiyaların tikilməsi ilə bağlı əlaqəli layihələndirmə işləri aparır. Tikiləcək yarımstansiya və xətlər üçün avadanlıqlarla təchizat və başqa sahələr üzrə işlər görülür. Yarımstansiyalarda, o cümlədən yüksək gərginlikli xətlərdə işlərin ilkin olaraq sürətlə görülməsi və bundan sonra şəhərsalma işləri aparılan zaman paylayıcı elektrik şəbəkəsinin yaradılması planlaşdırılır. Ümumilikdə yuxarıda göstərilən 4 rayondan başqa, işğaldan azad ediləcək bütün ərazilərimizdəki rayonların elektrik enerji təchizatının qurulması və mövcudların yenilənməsi üçün layihələndirilmə işləri ən sürətli şəkildə aparılır.

Məqsəd işğaldan azad edilən rayon və kəndləri ən qısa vaxtda elektrik enerjisi ilə təmin etməkdir. Beləliklə, işğaldan azad edilən rayonlarımızda tezliklə öz işığımız yanacaq. Hazırda “Azərenerji” və “Azərişıq” bütün personalı ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin “işə başlayın” əmrini gözləyirlər.

## Doqquz ayda dövlət büdcəsinin mədaxili 17,9 milyard manat olub

Cari ilin 9 ayında dövlət büdcəsinin mədaxili 17 milyard 964,6 milyon manat təşkil edib ki, bu da proqnoza qarşı 206,5 milyon manat və ya 1,2 faiz, 2019-cu ilin eyni dövrü ilə müqayisədə isə 1 milyard 93,2 milyon manat və ya 6,5 faiz çoxdur.

Maliyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, yanvar-sentyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 5 milyard 672,6 milyon manat vəsait daxil olub, bu da proqnoza nisbətən 155,6 milyon manat və ya 2,8 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə 63,8 milyon manat və ya 1,1 faiz çoxdur. Həmin vəsaitin 74,9 faizi və yaxud 4 milyard 249,9 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür ki, bu da 2019-cu ilin eyni dövrü ilə müqayisədə 321,1 milyon manat və ya 8,2 faiz çoxdur.

Bu ilin 9 ayında Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 2 milyard 955,3 milyon manat vəsait təmin edilib ki, bu da proqnoza nisbətən 33 milyon manat və ya 1,1 faiz çoxdur. Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar üzrə ödənişli xidmətlər və sair daxilolmalardan müvafiq olaraq 373,9 və 110,3 milyon manat vəsait büdcəyə daxil olub.

Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə proqnozla nəzərdə tutulmuş həcmdə, yəni 8 milyard 852,5 milyon manat vəsait transfert edilib. Cari ilin iyul-sentyabr ayları üzrə dövlət büdcəsinin mədaxil proqnozu 5 milyard 941,8 milyon manat icra edilib.



Doqquz ayda dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 98,6 faiz və yaxud 18 milyard 642,2 milyon manat icra edilib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1 milyard 951,6 milyon manat və ya 11,7 faiz çoxdur. Yanvar sentyabr aylarında büdcə təşkilatlarının təqdim etdikləri xərc sifarişləri üzrə xəzinədarlıq orqanları tərəfindən qəbul edilmiş öhdəliklər tam və vaxtında maliyyələşdirilib.

İqtisadi təsnifata uyğun olaraq cari ilin 9 ayında dövlət büdcəsi xərclərinin 38,5 faizi və ya 7 milyard 171,7 milyon manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 21,8 faiz və ya 1 milyard 283 milyon manat çoxdur.

Bu ilin 9 ayında dövlət büdcəsi xərclərinin 12 milyard 188 milyon manatı və ya 65,4 faizi cari xərclərə, 4 milyard 927,6 milyon manatı və ya 26,4 faizi əsaslı xərclərə, 1 milyard 526,6 milyon manatı və ya 8,2 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Doqquz ayda dövlət büdcəsinin kəsiri 677,6 milyon manat təşkil edib və ya 1 milyard 156,6 milyon manat məbləğində proqnozlaşdırılan kəsirdən 479 milyon manat və ya 41,4 faiz az olub. Kəsirin örtülməsi nəzərdə tutulduğu kimi özəlləşmədən daxilolmalar, xaricdən cəlb edilən kreditlər, daxili borclanma və vahid xəzinə hesabının qalığı hesabına təmin edilib.

# Bir neçə gün öncə İtaliyanın Milan bələdiyyəsi, şura qrupları ilə birlikdə verdiyi qərarda qondarma Artsax Respublikasının müstəqilliyini tanıdığını bildirmişdir. Qərarda qondarma “tarixi” faktlar da öz əksini tapmışdır

***Bununla əlaqədar Romanın Sapienza Universitetinin “Siyasi elmlər və beynəlxalq əlaqələr” fakültəsinin məzunu Gülər Əzizovanın Milan bələdiyyəsinə ünvanladığı məktubu olduğu kimi diqqətinizə çatdırırıq:***

***Hörmətli Milan bələdiyyəsi və nəzdindəki şura qrupları!***

*Mən bu məktubu təkcə ölkəsinin ərazi bütövlüyünün qorunmasını tələb edən vətəndaş kimi deyil, eləcə də İtaliyada “Siyasi elmlər və beynəlxalq əlaqələr” ixtisasına yiyələnmiş bir tələbə kimi yazıram.*

*İtaliyada hüquq təhsili mürəkkəb olsa da, ən tələb olunandır. Təhsil aldığım müddətdə nüfuzlu professorlardan “Beynəlxalq hüquq”, “Konstitusiya hüququ”, “Avropa İttifaqı hüququ” dərslərini alan zaman bu incə yanaşmanın şahidi oldum. Maraqlı məqamdır ki, indiki müasir mülki hüquq normalarının əsası qədim “Roma hüququ”ndan götürülmüşdür. Dolayısıyla, İtaliya sivilizasiyanın, mədəniyyətin, bir çox elmlərin beşiyi olmaqla yanaşı, müasir hüquq elminin də istinad nöqtəsidir. Təhsil aldığım müddətdə, dəfələrlə müraciət etdiyim İtaliya konstitusiyasının “Əsas prinsiplər” hissəsində dövlətin ərazi bütövlüyünə, beynəlxalq hüquq normalarına uyğunluğuna və s. dair maddələr yer alır. Təəccüblü haldır ki, bütün qeyd etdiyim faktlara baxmayaraq, belə bir önəmli italyan qurumu separatçı, terrorist fəaliyyətlə məşğul olan, beynəlxalq hüquq normalarına və BMT qətnamələrinə məhəl qoymayan qondarma “Dağlıq Qarabağ” dövlətinə və onun qondarma rejiminə dəstək olur. Azərbaycana qarşı hələ 1988-ci ildən başlayan erməni təcavüzünün qarşısının alınması məqsədi ilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 1993-cü il aprel ayının 30-da 822 nömrəli, 1993-cü il iyul ayının 29-da 853 nömrəli, 1993-cü ilin oktyabr ayının 14-də 874 nömrəli və həmin ilin noyabr ayının 12-də 884 nömrəli qətnamələrini qəbul etdi.*

*Bu qətnamələrdə erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi tələb olunsa da, Ermənistan rəhbərliyi günümüzə qədər bu beynəlxalq qətnamələrə əməl etmir və öz işğalçılıq siyasətini davam etdirir.*

*Qarabağ tarixi Azərbaycan torpağıdır və beynəlxalq aləmdə də hüquqi səviyyədə, de-jure Azərbaycan torpağı olaraq qəbul olunur. Bu faktın əksini bəyan edən hər kəs beynəlxalq və humanitar hüquqa, BMT prinsiplərinə əks getmiş sayılır.*

*Sizi bu siyahıda gördüyüm üçün çox üzülür, tezliklə doğru mənbələrdən olan məlumatlarla tanış olub, verdiyiniz qərarın səhv olduğunu anlayacağınıza ümid edirəm.*

*Bu məqsədlə, sizi yaratdığım @karabakh.ita instaqram səhifəsini izləməyə dəvət edirəm.*



Comune di Milano

Presentato in C.C. il 12-10-2020 h.17.59
Il Funzionario

Consiglio Comunale
Gruppo Consiliare Milano Popolare

MOZIONE URGENTE PER IL RICONOSCIMENTO DELLA REPUBBLICA DELL'ARTSAKH DA PARTE DELLE AUTORITÀ ITALIANE

PREMESSO CHE

Da più settimane la pacifica popolazione civile e tutte le strutture (comprese gli ospedali, le scuole, le abitazioni, i centri di protezione civile) della Repubblica dell'Artsakh (Nagorno Karabakh) vengono cannoneggiati e distrutti con attacchi missilistici da parte delle forze armate dell'Azerbaigian, con l'aiuto palese e proclamato dei militari dell'esercito della Turchia, aiutati dai terroristi islamici portati appositamente sul territorio dalla Siria attraverso la Turchia.

La Repubblica dell'Artsakh (Nagorno Karabakh) è un simbolo per tutto il popolo armeno, disperso nel mondo a causa del Primo Genocidio del XX secolo perpetrato dalla Turchia Ottomana.

Tra le sue montagne l'antichissima civiltà armena si è tramandata nei secoli. Da qui hanno preso vita in

# “Israel HaYom” qəzeti: Dağlıq Qarabağ: Azərbaycan Ordusu hücuma keçir - ermənilər geri çəkilir

Azərbaycanın Dağlıq Qarabağ regionunda Azərbaycan və Ermənistan arasında əsl müharibə qızışmaqda davam edir. Bu gün bu müharibədə yeni rekord vurulub, belə ki, Azərbaycan Ordusu Dağlıq Qarabağdan cənuba, İran sərhədi boyunca müdafiə xətlərini yarıb və şimala, Dağlıq Qarabağın paytaxtı Xankəndi şəhəri istiqamətində irəliləməyə real şəkildə nail olub.

Bu barədə İsrailin nüfuzlu ivritdilli “Israel HaYom” qəzetində “Dağlıq Qarabağ: Azərbaycan Ordusu hücuma keçir – ermənilər geri çəkilir” sərlövhəli məqaləsində tanınmış israilli jurnalist Neta Bar yazıb.

Qəzet qeyd edir ki, Azərbaycan Prezidenti İlham Əliyev döyüş əməliyyatları zonasının cənub istiqamətində 13 kənd və şəhərin, o cümlədən 1990-cı illərdə, birinci Dağlıq Qarabağ müharibəsi başlananadək minlərlə dinc Azərbaycan sakininin yaşadığı Zəngilan şəhərinin işğaldan tam azad olunmasını elan edib.

“Azərbaycan döyüş əməliyyatını beynəlxalq birlik tərəfindən tanınan öz ərazisində keçirir. Biz Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirmirik, - bizim belə planlarımız yoxdur. Azərbaycan istəyir ki, tezliklə bu döyüşlər başa çatsın, tezliklə ərazi bütövlüyümüz bərpa edilsin. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində bəyan edib”, - deyə “Israel HaYom” qəzeti qeyd edir.

Azərbaycan Prezidenti deyib: “Otuz il ərzində Ermənistan rəhbərliyi “güclü ordusu” haqqında uydurmalar ortalığa atırdı, “yenilməz Ermənistan ordusu” barədə miflər yaradırdı. Bunu biz yerə vurduq. Bu gün də onların dövlət rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Onların ordusunu, texnikasını, demək olar ki, məhv etmişik. Biz onlara elə dərs veririk ki, bu dərsi heç vaxt unutmayacaqlar. Ermənistan hələ nə qədər gec deyil bəyanat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər”.

İsrail qəzeti öz tərəfindən yazır ki, ermənilər “bütün istiqamətlərdə əks-hücum həyata keçirmək” barədə elan ediblər, lakin sonradan bu xəbər təsdiqlənməyib.

## “Şahdağ Xeyriyyə Cəmiyyəti” İB QHT Şurasının qrantı hesabına layihə icrasını davam etdirir

“Şahdağ Xeyriyyə Cəmiyyəti” İB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2020-ci ilin 1-ci qrant müsabiqəsində qalib gəlmiş və 15 iyul 2020-ci il tarixindən “Qadınlar üçün “İnnovativ sahibkarlığın əsasları” adlı onlayn təlim” adlı layihənin icrasına başlamışdır.

Layihənin icra planına uyğun olaraq ikinci mərhələdə müvafiq işlər onlayn formatda icra edilir. Layihənin icrası davam edir. Layihənin icrası 4 ay davam edəcəkdir.

## “Azərbaycan İqtisadçılar İttifaqı” İB QHT Şurasının dəstəyi ilə layihə icrasını davam etdirir

“Azərbaycan İqtisadçılar İttifaqı” İB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2020-ci ilin 1-ci qrant müsabiqəsində qalib gəlmiş və 15 iyul 2020-ci il tarixindən “Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi”nin peşə liseylərində onlayn təşviqi tədbirləri” adlı layihənin icrasına başlamışdır.

Layihənin icra planına uyğun olaraq ikinci mərhələdə müvafiq işlər onlayn formatda icra edilir. Layihənin icrası davam edir.

Layihənin icrası 5 ay davam edəcəkdir.

## “Peşəyönümlü Təhsilin İnkişafına Yardım” İB QHT Şurasının qrantı hesabına layihə icrasını davam etdirir

“Peşəyönümlü Təhsilin İnkişafına Yardım” İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2020-ci ilin 1-ci qrant müsabiqəsində qalib gəlmişdir. “ Gələcək müəllimlərin məktəbdə peşəyönümü işinin təşkilinə hazırlanması üzrə maarifləndirici onlayn tədbirlərin təşkili” adlı bu layihənin icrası uğurla davam edir. Layihənin icra planına uyğun olaraq zəruri tədbirlərin onlayn formatda aparılması nəzərdə tutulur. Layihənin icrası 3 ay davam edəcək.

## Ukrayna telekanalında Ermənistanın işğalçılıq siyasətindən bəhs olunan reportaj yayımlanıb



Ukraynanın ATR telekanalında Zəngilan şəhəri də daxil olmaqla, Azərbaycanın 24 yaşayış məntəqəsinin işğaldan azad olunması ilə bağlı reportaj yayımlanıb.

Reportajda Prezident İlham Əliyevin bununla bağlı xalqa müraciəti, Zəngilan şəhərində Azərbaycan bayrağının ucaldılması prosesi və ölkəmizin Ukraynadakı səfiri Elmira Axundovanın müsahibəsi yer alıb.

Zəngilan şəhərinin azad olunmasının Azərbaycanın böyük qələbəsi olduğunu bildirən səfir deyib: “Azərbaycan Ordusu öz torpaqlarının azad olunması uğrunda döyüşür. Bütün təzyiqlərə baxmayaraq, Azərbaycan öz ərazilərini işğalçılardan azad edəcək. Beynəlxalq təşkilatlar 30 ildir Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistana təzyiq etməli idi ki, ölkəmizin ərazi bütövlüyü təmin olunsun. Ermənistan işğalçılıq siyasətinə görə bütün qlobal iqtisadi layihələrindən kənarda qalıb”.

Diplomat Ermənistanın Gəncə, Tərtər, Mingəçevir şəhərlərini raket və artilleriya atəşinə tutduğunu xatırladaraq, bunun müharibə cinayəti olduğunu deyib.

Elmira Axundova Azərbaycanın haqlı mübarizəsinə göstərdiyi dəstəyə görə Ukrayna dövlətinə təşəkkürünü bildirib.

## Eduardo Quaylupo: Ermənistanın azərbaycanlı mülki əhaliyə qarşı hücumlarını şiddətlə qınayırıq

“Azərbaycanın çətin vaxtında onun yanında olduğumuzu bildirirəm.” Bu sözləri AZƏRTAC-a müsahibəsində İspaniyanın “Style International” qəzetinin Diplomatiya və beynəlxalq əlaqələr şöbəsinin müdiri Eduardo Quaylupo ifadə edib. Eduardo Quaylupo deyib: “Bunu yalnız öz adımdan və ya təmsil etdiyim mətbuat orqanının adından deyil, Latın Amerikası ictimaiyyətinin adından da söyləyirəm. Ermənistanın Azərbaycana qarşı təcavüzünü və azərbaycanlı mülki əhaliyə qarşı hücumlarını şiddətlə qınayırıq”.

## Macarıstan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməkdə davam edir və hər cür təcavüzü qınayır



Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Macarıstan tərəfindən həmsədri, Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyyarto komissiyanın Azərbaycan tərəfindən həmsədri, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə məktub ünvanlayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, məktubda bildirilir ki, Macarıstan Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini dəstəkləməkdə davam edir və hər cür təcavüzü qınayır. Buna görə də münaqişənin de-eskalasiyasına və ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə həllinə çağırır.

Peter Siyyarto ikitərəfli iqtisadi və ticarət əməkdaşlığının gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün tezliklə görüşlərin keçiriləcəyinə də ümidvar olduğunu yazır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500